Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Növbədənkənar
on altıncı sessiya

76-cı cild

25 iyun 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# XVI SESSİYASI İCLASININ

# PROTOKOLU № 174

*Milli Məclisin iclas salonu.*
*25 iyun 2024-cü il*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 103 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 97 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Sahib Ələkbərov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Xaqani Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri.

**İlkin Vəliyev**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Dövlət Vergi Xidməti rəisinin müavini.

**Elvin Camalov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Anar Əliyev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Himalay Məmişov**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri.

**Sadiq Əliyev**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Natiq Şirinov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin şöbə müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. “Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında ümumvətəndaş pasportlarının sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

5. “Azərbaycan Respublikası Hökuməti ilə Qambiya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik şəxslərin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

6. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Yol hərəkəti haqqında” və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının qanunlarında də-

yişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

16. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində

dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

17. “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Siyavuş Novruzov, Elşad Mirbəşir oğlu, Zahid Oruc, Sahib Alıyev, Ceyhun Məmmədov, Fazil Mustafa, Etibar Əliyev, Vüqar Bayramov, Tural Gəncəliyev

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**1. “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**2. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Tahir Mirkişili

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**3. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**4. "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında ümumvətəndaş pasportlarının sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**5. "Azərbaycan Respublikası Hökuməti ilə Qambiya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik şəxslərin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**6. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Bayramov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
| Lehinə | 96 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**8. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Mahir Abbaszadə, Kamal Cəfərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**9. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 98 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**10. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**11. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Tahir Mirkişili, Nurlan Həsənov, Hicran Hüseynova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
| Lehinə | 101 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Qüdrət Həsənquliyev, Razi Nurullayev, Bəhruz Məhərrəmov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Bəhruz Məhərrəmov, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10–12-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 95 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**14. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Naqif Həmzəyev, Zahid Oruc

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 98 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**15. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Əli Hüseynli, Fazil Mustafa, Fəzail Ağamalı, Emin Hacıyev, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 92 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**17. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının**

**Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Razi Nurullayev, Aydın Mirzəzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

## *MİLLİ MƏCLİSİN İCLASI*

*25 iyun 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Salam, hamınızı xoş gördük, hörmətli deputatlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 97 |
| Yetərsay | 83 |

İclası başlaya bilərik, yetərsay var.

Hörmətli həmkarlar, bildiyiniz kimi, sabah ölkəmizdə Silahlı Qüvvələr Günü qeyd ediləcək. 106 il öncə yaradılmış Azərbaycan Ordusu şərəfli inkişaf yolu keçərək bu gün dünyanın ən güclü orduları sırasında yer alır.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində və

bir günlük antiterror tədbirlərində milli hərb tariximizə yazdıqları şanlı səhifələr xalqımızın qürur mənbəyidir.

Qəhrəman ordumuzun döyüş meydanlarında göstərdiyi hünərlər qarşıya qoyulan hədəflərə nail olmaq üçün onun ən mürəkkəb hərbi əməliyyatları yerinə yetirməyə qadir olduğunu nümayiş etdirmişdir. Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamış Ermənistan silahlı qüvvələri darmadağın edilmiş, əzəli və tarixi torpaqlarımız olan Qarabağ və Şərqi Zəngəzur düşmən əsarətindən xilas edilmişdir.

Tarixi ədalətin öz yerini tutması, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması naminə canından keçmiş şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını biz heç zaman unutmayacağıq.

Hörmətli həmkarlar, Silahlı Qüvvələr Gününü bayram edərkən Azərbaycan hərbi nailiyyətlərini qeyd etməklə yanaşı, müdafiə potensialını daha da möhkəmləndirməyə, regionda daimi sülh və sabitlik yaradılmasına kömək göstərməyə sadiq olduğunu da təsdiq edir. Bu gün Silahlı Qüvvələrimiz işğaldan azad olunmuş bölgələrin müdafiəsi, dövlət sərhədlərimizin qorunması naminə öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Əminliklə söyləmək olar ki, Azərbaycan Silahlı Qüvvələri qarşıdakı illərdə daha da inkişaf edəcək və dünyanın qüdrətli orduları sırasında öz yerini möhkəmləndirəcəkdir.

Hörmətli deputatlar, biz Silahlı Qüvvələr Günü münasibəti ilə müzəffər Ali Baş Komandanı, Silahlı Qüvvələrin qəhrəman əsgər və zabitlərini, bütün hərbi qulluqçularımızı ürəkdən təbrik edir, Azərbaycanın milli maraqlarının və hərbi təhlükəsizliyinin qorunması naminə şərəfli missiyalarını həyata keçirməkdə onlara yeni uğurlar arzulayırıq! *(Alqışlar.)*

Çox sağ olun. İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə münasibət bildirin. Gündəlik sizin hamınıza paylanıb. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, həmişə olduğu kimi, bizim 30 dəqiqəmiz var. Gündəlikdə, ya da gündəmdə olan məsələlərlə bağlı 10 nəfər çıxış edə biləcək. Buyurun. Sonuncu Tural Gəncəliyevin çıxışı olacaq. Xahiş edirəm, qalan siyahını götürün. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Hörmətli sədr, əziz həmkarlar. Proseslər göstərir ki, Azərbaycanda ictimai qayda və ictimai təhlükəsizlik tam şəkildə təmin edilir, dövləti, cəmiyyəti və milli maraqları təhdid edən istənilən qəsdin qarşısı qətiyyət və peşəkarlıqla alınır. Lakin Rusiyada baş verən son terror aktı, həmçinin digər region ölkələrində müşahidə olunan qeyri-stabil vəziyyət göstərir ki, təhlükəsizlik məsələsində yalnız daxilə fokuslanmaq olmaz və bütövlükdə, təhlükəsizlik mühiti xarici təhdidlərlə uzlaşdırılmış şəkildə qiymətləndirilməlidir. Bu mənada, Nazirlər Kabinetinin qərarı ilə xüsusi karantin rejimi müddətinin uzadılması təhlükəsizlik baxımından çox vacibdir.

Cənab Prezident aprelin 23-də ADA Universitetindəki

çıxışında da ifadə etmişdir: "Quru sərhədlərimizi bağladıqdan sonra milli təhlükəsizliyimiz üçün böyük faydalar gördük və bu, Azərbaycanda təhlükəsizliyi gücləndirib". İndiki həssas dönəmdə, dünyada terror və digər cinayətkarlıq meyillərinin ayrı-ayrı dövlətlər səviyyəsində rəsmən dəstəkləndiyi bir şəraitdə belə təhdidlərin Azərbaycana yol tapa bilməməsinin səbəblərindən biri də məhz quru sərhədlərinin bağlı qalmasıdır. Unutmamalıyıq ki, yalnız güclü və suveren dövlət belə bir məqamda öz təhlükəsizliyi ilə bağlı müstəqil qərar verə bilər, o cümlədən təhlükəsizlik elementi kimi quru sərhədini bağlı saxlaya bilər. Sərhədlərlə bağlı qərar göstərir ki, ölkəmiz bu gücə və imkana sahibdir.

Təbii ki, bu situasiya regionda qeyri-sağlam maraqlar güdən gücləri qane edə bilməz və ölkə daxilində 5-ci kolonun iki gündür, məsələ ətrafında hay-küy salması təsadüf deyil. Xatırlayırsınızsa, bunlar hətta Nazirlər Kabineti qarşısında aksiya, filan keçirmək eşqinə düşmüşdülər, amma təbii ki, Azərbaycan meydanlarda məsələləri həll olunan anarxiya dövləti deyil. Heç kim cənab İlham Əliyevin iradəsinə təsir edə bilməz və bu qətiyyət Azərbaycanı daha təhlükəsiz coğrafiyaya çevirməkdədir.

Bilirsiniz, indi də başqa bir istiqamətdən hərəkətə başlayıblar. Qaragüruhun VI çağırış parlamentin fəaliyyətinə kölgə salmaq cəhdlərinə şahidlik edirik. Seçki vaxtı parlamentə can atanlar bu gün parlamentin nüfuzdan salınmasına cəhdlər edirlər. Baxmayaraq ki, VI çağırış Milli Məclis ən şərəfli və ən mürəkkəb dönəmlərdə layiqli hakimiyyət qolu kimi fəaliyyəti ilə özünü doğruldub. İndi də növbədənkənar seçkilər hansısa uğursuzluğun, böhranın, məğlubiyyətin deyil, möhtərəm Prezidentin liderliyində qələbələrdən, uğurlardan doğan reallığın hökmüdür.

Eyni zamanda, heç şübhəsiz ki, növbədənkənar parlament seçkiləri həm də siyasi sistemin heç bir sosial bazası olmayan, sosial medianın ödənişli paylaşımları hesabına ayaqda qalan antimilli ünsürlərdən, özünü “xalqa yaxın”, “milli” göstərən saxtakarlardan, müstəqilliyə aparan yeganə yol olan Heydər Əliyevin istiqlal yolundan özünə pay çıxarmağa, rol biçməyə çalışan tükənmiş populistlərdən arınması üçün, siyasi sistemimizin təmizlənməsi üçün mühüm mərhələ olacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli qonaqlar, hörmətli deputatlar. Hörmətli xanım sədr, mən də Silahlı Qüvvələr Günü münasibəti ilə bütün hərbçilərimizi, xalqımızı təbrik edirəm. Ordu ölkənin dayağıdır, ölkənin möhkəmlənməsinə, onun qorunmasına xidmət edən ən güclü qrupdur. Başda müzəffər Ali Baş Komandan olmaqla, bu gün 44 günlük müharibədən, antiterror əməliyyatından və Azərbaycanın ərazi bütövlüyündən sonra onlara ən böyük təbriklər düşür.

Digər bir məsələ. Burada həmkarım da qeyd etdi. Təhlükəsizlik məsələsi, doğrudan da, dünyada bir nömrəli məsələyə çevrilibdir. Terror aktları artıq digər istiqamətlərdə öz əksini tapır. İndi artıq dini yöndə də həyata keçirirlər. Bir azdan etnik yönə keçəcəkdir. Bu da ölkələri daxildən parçalamaq, onları zəiflətmək, onların başını bu proseslərə qatmaq, özlərinə tabe etdirmək üçün böyük dövlətlərin taktikasıdır. Bu, açıq şəkildə görünür. Ona görə də Azərbaycanda bunun qarşısı alınır. Elə büdcə müzakirələrində təhlükəsizlik və müdafiə üçün ayrılmasını nəzərdə tutduğumuz xərclər də məhz bu cür təhlükələrin qarşısının alınmasına xidmət edəcəkdir, çünki indi artıq taktikanı dəyişmək, yeni təlimlərə keçmək lazımdır. Yeni

texnologiya tələb olunur, çünki digərlərinin texnologiyaları bizdən üstündür. Mən böyük dövlətləri nəzərdə tuturam. O baxımdan da, təhlükə yaradan halların, bunu həyata keçirənlərin qarşısını almaqdan ötrü mütləq bu addımlar atılmalıdır. Hesab edirəm ki, bizim bütün hüquq mühafizə orqanları da yeni təlimləri, yeni texnologiyanı öz sıralarında tətbiq etməlidirlər.

Parlament seçkiləri ilə əlaqədar qeyd olundu. Adətən müxalifət sevinməlidir ki, parlament seçkiləri vaxtından qabaq keçirilir. VI çağırış başlayandan indiyədək deyirdilər ki, növbədənkənar parlament seçkisi olmalıdır, tələb edirik, mitinq keçirəcəyik və sair. Bu gün bu, elan olunandan sonra tamamilə əksinə təbliğat aparmağa başlayıblar. Bu, həm hüquqa, həm Konstitusiyaya, həm də Seçki Məcəlləsinin tələblərinə tam uyğundur. Proseslər də ədalətli şəkildə davam edir. Bu müddət ərzində parlamentin fəaliyyəti çox yüksək olub. Mən hamıya uğurlar arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Biz xüsusən son günlərdə daha aydın müşahidə edirik ki, Fransanın simasında Qərb Cənubi Qafqaz regionunda olduqca təhlükəli, dərin planların həyata keçirilməsinə start veribdir. Bildiyimiz kimi, hücum xarakterli, özü yeriyən “Sezar” artilleriya qurğularının Ermənistana verilməsi gələcəkdə Cənubi Qafqaz regionunda yeni müharibənin başlanmasını şərtləndirə bilər. Tarixdən təcrübələr mövcuddur ki, işğalçılıq siyasətini həyata keçirən ölkələrə hücum silahlarının verilməsi qadağan edilibdir. Məsələn, İkinci Dünya müharibəsindən sonra Almaniyaya, Yaponiyaya öz silahlı qüvvələrinin formalaşdırılmasında çox ciddi məhdudiyyət-

lər qoyulmuşdu. Amma bu gün Azərbaycan torpaqlarını 30 il işğal altında saxlayan Ermənistan hücum silahları ilə silahlandırılmaqdadır. Bu da, yumşaq desək, heç başadüşülən deyil. Təbii ki, bunların arxasında hansı təhlükəli planların dayandığını biz çox aydın bilirik.

Cənubi Qafqaz regionu tarixən öz yüksək münaqişə potensialı ilə seçilibdir. Bu gün də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində Ermənistanın ritorikasının saxta olduğunu bir daha müşahidə etməkdəyik. Bir tərəfdən, sülh haqqında danışırlar, digər tərədən, özlərinə təhlükəsizlik təminatları tələb edirlər. Kimin qarşısında tələb edirlər? Axı, onlar çox yaxşı bilirlər ki, Azərbaycanın heç kimin torpağında gözü yoxdur. Biz, əksinə, regionda sülh yaradırıq. Bizim iradəmiz, ölkə Prezidentinin iradəsi, strateji baxışları sayəsində...

Biz dəfələrcə qeyd etmişik ki, ilk dəfə olaraq Cənubi Qafqaz regionunda yeni təhlükəsizlik mühiti formalaşdırılıbdır. İlk dəfə olaraq məhz Azərbaycan sayəsində, Azərbaycan rəhbərinin iradəsi sayəsində Cənubi Qafqaz regionunda, nəhayət, regional təhlükəsizlik sistemi qurulacaqdır. Bir daha qeyd etmək istəyirəm ki, tarixən bu istiqamətdə cəhdlər edilibdir, amma heç bir nəticə olmayıbdır. Cənubi Qafqaz regionunda marağı olan subyektlər bu yöndə Azərbaycanı dəstəkləməlidirlər, lakin biz bunun əksini görməkdəyik. Ona görə də mən təklif edərdim, Ermənistanla münasibətlərin normallaşdırılmasının, yəni gələcəkdə sülh sazişinin imzalanmasının ən vacib şərtlərindən biri də ondan ibarət olmalıdır ki, Ermənistana hücum silahları verilməsin. Çünki bu, gələcəkdə regionda müharibəni qaçılmaz edəcəkdir. Biz bu məsələni beynəlxalq təşkilatlar qarşısında da çox ciddi

şəkildə qaldırmalıyıq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, Vətən müharibəsində qələbəmiz erməni kilsəsinin tarixi statusunu dəyişir və Ermənistan hakimiyyəti, nəhayət, katolikosluq institutunun müstəsnalığına, hökmranlığına son qoymağa yaxındır. 28 May – Müstəqillik Günündə II Qareginin rəsmi tədbirə buraxılmaması Nikol Paşinyanın "təsir agentləri" adlandırdığı din xadimləri ilə yaxın 3 ayda həlledici döyüşün olacağını göstərir. Bəli, sərhədin delimitasiyasına etiraz adı ilə meydanlara çıxan Baqrat Qalstanyanın apardığı mübarizə təkcə hakimiyyət davası deyil, kilsənin dövlət üzərində minillik inhisarını qorumağa xidmət edən "səlib yürüşü"dür.

Hamıya bəllidir, erməni həvari kilsəsi ən çox xalqımıza düşmənçilik edib. Biz Razdan meydanında "İskəndər" raketlərini və ordudan qabaqda gedən keşiş kolonunu da görmüşük, Birinci və İkinci Qarabağ müharibələrində erməni əskərlərinə xeyir-dua verən, onları təcavüzə, qəddarlığa, kütləvi qırğınlara səsləyən qara xaçlı komandirləri də unutmamışıq.

Əgər qətllər törədən hərbçiyə Böyük Tiqran ordeni və qəhrəmanlıq medalları verilirdisə, kilsə xadimlərinə də yepiskopluqdan patriarxlığa qədər bəxş olunan dini rütbələr məhz işğalın mükafatlarıdır. Əlləri təkcə Azərbaycan xalqının deyil, öz millətinin də qanına batanlar din xadimi sayıla bilməzlər. "Yerablur" məzarlığını qazan, dəfn kontorları kimi çalışan, hərbi qərarlar imzalayan patriarxat və kilsə dövlətə çevrilib düşmənçilik yaymaqla indi hakimiyyəti təkbaşına ələ almaq iddiasındadır. Görün, xalq onu məğlubiyyətə gətirən koçaryanlara, sarkisyanlara o qədər nifrət edir ki, bir keşişin ətəyindən asılı qalıb. Əsl faciə budur.

Artıq erməni rəsmiləri də xalqımızın yüz illərcə dediklərini təsdiqləyir. İlk növbədə, Baş nazir "tarixi, mifik deyil, real Ermənistan", – deyir, "dövlət kilsədən ayrılmalıdır", – söyləyir. Qalır təkcə soyqırımı əsarəti. Ondan da xilas etsə, Paşinyan milli çevriliş edəcək. Biz yardım göstərməliyik ki, o, missiyasını axıra çatdırsın.

Hakim partiyadan deputat Arsen Torosyan "1700 ildir, erməni dövlətçiliyinin məhvinə səbəb olan kilsənin mif və stereotiplərini məhv etməliyik" söyləyir. İqtidaryönlü "Baqramyan-26" teleqram kanalı yazır: "Düşmənçilik və nifrət yayanlar xristianlığı və müqəddəsliyi təmsil etmirlər". Bəli, hər sözünə qatılırıq. Lakin Paşinyanı xaç və qılıncla devirməyə çalışanlar hakimiyyətə gəlsələr, onda keşişlərin qələbəsi erməni xalqının məğlubiyyəti, yaxud Varfolomey gecəsi olacaq, çünki katolikos sülhü deyil, müharibəni təmsil edir.

Bir kilsə əmin-amanlığa xidmət etmirsə, o, Allahın evi deyil, hərbi-siyasi qərargahdır, dirildən məbəd deyil, öldürən silahdır. Paşinyanın cəsarətli fikri necə də həqiqətdir: "Ermənistanda Allaha inanmayan çoxlu din xadimi var".

Biz Ermənistanın siyasi hakimiyyəti ilə barış anlaşması imzalayacağıq, lakin kilsə və dünya erməniçiliyi xalqımızla düşmənçiliyi davam etdirəcək. İsa Məsih məhz belələrinə baxaraq Allaha üz tutub dua edirdi: "Ata, onları bağışla, çünki nə etdiklərini bilmirlər". Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev**. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Artıq neçənci dəfədir ki, Amerika Birləşmiş Ştatlarının hər hansı yüksək vəzifəli məmuru ilə ünsiyyətdən dərhal sonra Ermənistan rəsmiləri hətta konkret vaxt göstərməklə Azərbaycanla sülhdən dəm vururlar. ABŞ Dövlət katibinin

müavini Riçard Verma ötən həftə İrəvanı tərk edər-etməz eyni vəziyyət yenə də təkrarlandı. Öncə onu deyim ki, Ermənistan rəsmilərinə belə açıqlamalar verdirib sülh göyərçini kimi təqdim etməyə çalışanların məqsədi heç də bu regionda qarşıdurmaya son qoymaq deyil.

Bəli, A.Blinkenin cənab İlham Əliyevə növbəti telefon zəngindən də göründüyü kimi, Bayden Administrasiyasına noyabrda keçiriləcək seçki öncəsi Azərbaycanla Ermənistan arasında tez-tələsik hər hansı bir çərçivə anlaşması lazımdır. Amma bu elə bir anlaşma olmalıdır ki, düşmənçiliyi aradan qaldırmasın. Əgər ABŞ bu regionda davamlı və dayanıqlı sülhdə maraqlı olsaydı, onda Riçard Verma hayları Azərbaycan Prezidentinin ABŞ Dövlət katibi ilə telefon danışığında da səsləndirdiyi beynəlxalq hüquqa və beynəlxalq təcrübəyə dayanan tələbini yerinə yetirib konstitusiyalarını dəyişdirməyə çağırardı, onları silahlandırıb revanşizmə həvəsləndirən ölkələrin səfirləri ilə İrəvanda, özünün də qeyd etdiyi kimi, "səmimi və məhsuldar" görüş keçirməzdi.

Baxın, belə bir təsəvvür formalaşdırmağa çalışırlar ki, qərbdəkilərin Ermənistana hərtərəfli dəstəkləri guya Rusiyanı regiondan vurub çıxarmaq niyyətləri ilə bağlıdır. Açığı, mən fikirləşmirəm ki, onlar bunu real sayacaq qədər sadəlövhdürlər. Əslində, heç Ermənistanın Rusiyaya forpostluğu dayandırmasını da istəmirlər. İstəkləri odur ki, Kreml bu regionda ötən əsrin 1990-cı illərində yeritdiyi siyasəti yeritsin. Yəni yenə də Pskov hava desantı diviziyası gəlib Ermənistandakıların yerinə, yaxud da onlarla birgə vuruşsun. Həmin diviziya 1992-ci ildə Sərsəng su anbarını ələ keçirib haylara təhvil verərkən qərbdəkilərdən hər hansı biri buna qarşı çıxdımı? Yox! Amma Rusiya hərbi kontingentinin bu il Qarabağı tərk

etməsinə ABŞ Dövlət Departamentinin təəssüf dolu yanaşmasını yaxşı xatırlayırıq, deyilmi?

Burada onu da diqqətinizə çatdırım ki, qərbdəkilər Paşinyanın Moskva əleyhinə çıxışlarının ekvilibristika olduğunu yaxşı bilirlər. Rusiyaya satışına qadağa qoyduqları malların ora Ermənistan üzərindən ötürülməsi isə elə onların da maraqlarına cavab verir. Ona görə də dövlətimizin ordu quruculuğuna torpaqlarımızın işğal altında olduğu zamanlardan da böyük diqqət ayırmasını düzgün sayırıq. Müzəffər Ali Baş Komandanımızın hər bir əmrini yüksək peşəkarlıqla və şərəflə yerinə yetirəcəklərinə əmin olduğumuz Silahlı Qüvvələrimizi sabahkı bayram münasibəti ilə ürəkdən təbrik edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Məlum olduğu kimi, dünən Xəzər rayonunda 3 polis əməkdaşı axtarışda olan cinayətkar tərəfindən qətlə yetirilib. Biz fürsətdən istifadə edib rəhmətə gedən polislərimizin ailələrinə dərin hüznlə baş sağlığı verir, Allahdan rəhmət diləyirik.

Hər kəsə məlum olduğu kimi, bu gün Azərbaycanda asayişin təmin olunmasında, cinayətkarlıqla mübarizədə hüquq mühafizə orqanları müstəsna rol oynayırlar. Bu gün Azərbaycan təhlükəsizlik baxımından dünyanın ən əmin-aman ölkələrindən birinə çevrilib. Heç şübhəsiz ki, polisə atılmış güllə dövlətçiliyə yönəlmiş güllədir və bu cinayətdə əli olan hər kəs ciddi şəkildə cəzalandırılmalıdır.

Onu da qeyd etmək lazımdır ki, həm Birinci Qarabağ müharibəsində, həm də İkinci Qarabağ müharibəsində Azərbaycan polisi torpaqlarımızın qorunması uğrunda fəal şəkildə iştirak edib, eyni zamanda, həmin sıralardan da çoxlu sayda şəhid var. Bu gün də işğaldan azad olunmuş

ərazilərdə hüquq mühafizə orqanları, Azərbaycan polisi öz vəzifəsini ləyaqətlə yerinə yetirir. Bütün bunlarla yanaşı, mən bir neçə məqama xüsusi diqqəti çəkmək istəyirəm. Bu gün Azərbaycan polisi bu istiqamətdə müəyyən addımlar atsa da, hesab edirəm ki, cinayətkarlıqla mübarizədə daha sərt addımlar atılmalıdır. Eyni zamanda, qanunsuz silahlarla bağlı sərt tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Dünən baş verən hadisə bir daha göstərdi ki, bu gün müəyyən insanlarda bu silahlar var.

Burada digər mühüm məqam isə ondan ibarətdir ki, biz illər öncə Azərbaycanda ölüm cəzasını ləğv etdik. Əlbəttə ki, bunun müəyyən səbəbləri vardır. Hərçənd, proseslər göstərir ki, bəzi cinayətlərin qarşısının alınması üçün ölüm cəzası daha səmərəlidir. Mən digər bir məqama da diqqəti çəkmək istəyirəm. Bugünkü hadisələr və proseslərin təhlili göstərir ki, biz cinayətkarların, dəfələrcə cinayət törətmiş insanların həbsdən azad olunması məsələsinə daha həssas yanaşmalıyıq. Bu gün ümumi statistikaya baxanda, görürük ki, dövlətimizin humanistlik göstərdiyi və azad etdiyi bu insanlar əksər hallarda yenidən cinayət törədirlər. Yəni mediada, informasiya vasitələrində gedən məlumatlardan da bu cinayətləri törədənlərin iki-üç dəfə həbs olunduğu və sonradan azadlığa çıxdığı məlum olur. Təbii ki, bunun müəyyən əsası var. Dövlətimiz humanistlik göstərir. Amma mən hesab edirəm ki, bu cür insanların həbsdən azad olunduqdan sonra cinayət törətmə ehtimalı daha çoxdur. Ona görə biz bu məsələlərdə daha həssas və daha diqqətli olmalıyıq. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Ölkəmizdə təhlükəsizliyin və sabitliyin qorunmasında xüsusi fədakarlıq göstərən insan-

lar kateqoriyasına hərbçilərimiz və polislərimiz daxildirlər. Mən də sabahkı ordu günümüzlə, milli qürur günümüzlə bağlı təbriklərinizə qoşuluram. Eyni zamanda, bu günlərdə şəhid olmuş polis qardaşlarımızın, övladlarımızın ailələrinə səbir diləyirəm və bütün polislərə Azərbaycan xalqının, Azərbaycan sevdası daşıyan bütün insanların onların yanında olduğunu bildirmək istəyirəm.

Vacib məsələlərdən biri kimi dövlət qulluğu probleminə istəyirəm toxunam. Hörmətli xanım sədr, keçən dəfə burada Sizin təşəbbüsünüzlə Milli Məclisə şəhid övladlarının, qazilərin işə götürülməsini qeyd elədik. Bu bizi çox sevindirdi. Yəni xoş niyyət, doğru yanaşma ilə bu kateqoriyadan olan insanları sevindirmək hamımızın ürəyincədir. Amma dövlət qulluğu ilə bağlı məsələlərdə elə problemlər var ki, bunu bir sıra nazirliklər, komitələr və başqa dövlət idarələri həyata keçirmirlər. Təsəvvür eləyin ki, dövlət qulluğuna qəbul mərhələsində imtahandan keçən, ən yüksək bal toplayan bir vətəndaş ailəsi ilə qəbuluma gəlibdir. Çox istedadlı bir Azərbaycan övladıdır, 2 ildir, sertifikat daşıyır. Ondan az bal toplamış bir çox adam xidmətə, qulluğa işə götürülübdür, o isə şifahi, yəni müsahibə mərhələsindən keçə bilmir. Onun sertifikatı olduğu halda, niyə keçə bilməsin?

O bu imtahanı veribsə, Daxili İşlər Nazirliyinə, DTX-ya sorğu göndərilir. Dövlət üçün təhlükəli adam deyilsə, imtahansız, müsahibəsiz işə götürülsün. Onun sertifikatının 2 ili keçib, 3 ildən sonra bu, heç bir işə yaramayacaq. Bu adam magistraturada oxuya-oxuya, gözündən əməliyyat olunduğu halda, imtahana girib, amma nəticə əldə eləyə bilmir. Burada mexanizm belə işləyir: birinci növbədə bu adamları işə götürməyəcəkləri halda, onlara öncədən ehtiyata alınmaları üçün razılıq ərizəsi yazdırılır,

müsahibə mərhələsində də dolaşdırıb kəsirlər. Sonra da az bal toplamış adamlar işə götürülür. Müsahibədən kəsilən vətəndaşlara müəyyən apelyasiya şikayəti verdiklərində də problemlər yaradılır ki, sən niyə şikayət eləyirsən, özündən çox razısan və sair. Ona görə də biz artıq bu məsələdə bir qərara gəlməliyik, müsahibə məsələsini ortadan qaldırmalıyıq. Bu, Azərbaycan vətəndaşıdır, öz dövlətinə xidmət eləmək istəyir. Vətəndaş bir nazirin, bir komitə sədrinin, bir idarə müdirinin qulluğuna deyil, ali, müqəddəs Azərbaycan dövlətinin qulluğuna girmək istəyir. Vətəndaş imtahanı keçibsə, bu şərtlər onun üçün sadələşdirilməlidir. Yüzlərcə gənc belə bir problem yaşayır. Onlara kömək göstərməliyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Fransanın regionda militarizasiya siyasəti həyata keçirməsi bizi narahat etməyə bilməz. Onun Ermənistana hücum xarakterli öldürücü silahlar təqdim etməsi və Ermənistan–Fransa hərbi əməkdaşlığını genişləndirməsi sülh müqaviləsinin imzalanmasına açıq-aşkar əngəllər törədir. Ermənistanın daxilində revanşistləri qidalandıran Makron rejimi anlamır ki, bu ölkədə ekstremist və təxribatçı qüvvələr artıq tükənib. Ermənistan Balayan, Ter-Petrosyan, Sarkisyan və Koçaryandan sonrakı dövrü yaşayır və ekstremistlərin varislərinin olmadığı bir şəraitdə öldürücü silahlar bumeranq effekti verəcək. Makron hələ də anlamır ki, cəfəng dənizdən-dənizə Ermənistan ideyasını, genosid fırıldağını tarixin zibilliyinə atırıq. XX əsrin böyük fikir adamı, şair esseist, dramaturq Pol Valeri “Fransanın obrazı” essesində yazır: “Fransız xalqı qədər ziddiyyətli və əsəbi xalq yoxdur. Fransa yeganə ölkədir ki, ironiya öz tarixi rolunu qədərincə oynayıb. İroniya bir neçə rejimin

süqutuna gətirib çıxarıb. Makronun ifrat ironiyası da artıq onun başına bəla olub".

Hər bir dövlət başçısının yürütdüyü daxili və xarici siyasəti təhlil etmək üçün onun bioqrafiyasına diqqət yetirmək lazımdır. Makronun bioqrafiyası ilə yaxından tanış olmaq üçün tanınmış jurnalist Sofi Petterin onun haqqında yazdığı məqaləni oxumaq kifayətdir. Həmin məqalədən: "Böyük filosof Pol Rikör Makronu sol milliyyətçi Fransua Dassenin məsləhəti ilə köməkçi götürüb". "Yaddaş, tarix və unutqanlıq" kitabını redaktə etmək üçün ona verir. Makron tez-tez öz fikirlərini izah etmək üçün onun yanına gəlirdi və bəzən ədəbsizlik edib filosofa yersiz məsləhətlər verirdi. Lemondun arxivində Pol Rikörün qeydləri tapılıb. Həmin qeydlərin birində Rikör Makronun ona məsləhətlər verməkdə səriştəsinin çatmadığını qeyd edir və bundan sonra onu yanından qovur. Pol Rikör 5 il faşist düşərgəsində dustaq olub və köməkçisinin şüurunda tarix və yaddaş haqqında təsəvvürlər formalaşdıra bilib. Faşizm ideologiyası Makronun təhtəlşüurunda yaşayır.

Ermənilərin ruhu ölübsə, öldürücü silahlar onlara hansı köməklik edə bilər? Bu yerdə Şarl de Qolun bir aforizmini xatırlamaq istəyirəm: 246 növ pendiri olan ölkəni necə idarə etmək olar? Elə Makron kimi başına yumurta çırpırlar, "Mona Liza"nın tablosunun üzərinə əvvəlcə tort atırlar, sonra isə şorba tökürlər. Makronun hakimiyyəti dövründə Da Vinçinin bu əvəzsiz əsərinin üzərinə zirehli şüşə quraşdırıblar. Bu da Makronun bioqrafiyasının əsas cizgilərindən biridir. Böyük Azərbaycan şairi Natəvanın heykəlinin vandalizmə məruz qalması isə beynəlxalq səviyyədə tərbiyəsizlik və mədəniyyətsizlikdir. Görünür, De Qol dövründən Makron dövrünə qədər pendir növlə-

rinin sayı kəskin azalmışdır. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Sabah ölkəmizdə Silahlı Qüvvələr Günü qeyd olunacaq. Milli liderimiz yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Ordusunda quruculuq yeni mərhələyə qədəm qoydu. Son 21 ildə müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusunun güclənməsi və bu istiqamətdə islahatların dərinləşməsi müşahidə olundu. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı ordumuz Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Mən Silahlı Qüvvələr Günü ilə bağlı həm ordumuzun iqtisadi baxımdan güclənməsinə, həm də bu istiqaməti həyata keçirən sosial tədbirlərə diqqət ayırmaq istərdim. Əvvəla, bizim bu gün müzakirə edəcəyimiz büdcə layihəsinə əsasən müdafiə və milli təhlükəsizlik xərclərimiz 705 milyon manat artırılaraq 7 milyard 126 milyon manat olacaq. Bu ondan xəbər verir ki, müdafiə və milli təhlükəsizliyin gücləndirilməsi və bu istiqamətdə fiskal ayırmaların artırılması 2024-cü ildə də prioritet olaraq qalacaq.

Ordumuzun güclənməsi ilə yanaşı, hərbçilərimizin, eləcə də şəhid ailələrinin və qazilərimizin sosial təminatının gücləndirilməsi ilə bağlı tədbirlər də davam etdirilir. 2020-ci ilin dövlət büdcəsində hərbçilərimizin mənzil təminatının gücləndirilməsi ilə bağlı 35 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Eyni zamanda, artıq 2024-cü il yanvarın 1-dən etibarən hərbi qulluqçularımızın aylıq vəzifə maaşları 20 faiz artırılıb. Bir tərəfdən, müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz

güclənir, digər tərəfdən, hərbçilərimizin sosial təminatı, o cümlədən mənzil təminatı ilə bağlı işlər daha da genişlənir. Həmçinin indiyədək 15 mindən artıq şəhid ailəsinə və qazilərimizə dövlət tərəfindən pulsuz mənzil təminatı həyata keçirilib. Bu gün Azərbaycanda cənab Prezidentin rəhbərliyi ilə şəhid ailələri və qazilərimiz üçün 20 adda sosial təminat proqramları reallaşıb. Bu o deməkdir ki, həm hərbçilərimizin, həm şəhid ailələrinin, həm də qazilərimizin sosial təminatının gücləndirilməsi prioritetdir. Hər ilin dövlət büdcəsindən bu istiqamətə vəsaitin ayrılması həyata keçirilir və bu da, təbii ki, bu yöndə sosial təminat tədbirlərinin daha da güclənməsindən xəbər verir.

Hörmətli xanım sədr, mən də Sizin təbriklərinizə qoşularaq bütün hərbçilərimizi təbrik edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış. Tural Gəncəliyev. Buyurun.

**T.Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar və hökumət üzvləri. Təəssüflər olsun ki, bu gün, biz yenidən Cənubi Qafqazda militarizasiya siyasətinin şahidi oluruq. Fransa yenə aqressiv, ekspansionist siyasətini Cənubi Qafqaza qədər sürdürür və liberal, demokratik dəyərlər adı altında gizlənən ekspansionist Makron hakimiyyəti Cənubi Qafqazda formalaşmış reallığı dəyişməyə çalışır. Fransanın Ermənistanı ölümcül hücum silahları ilə silahlandırması təkcə Azərbaycana qarşı deyil, bu, Cənubi Qafqazda olan digər ölkələrə qarşı ciddi təhlükə və risk yaradır. Belə ki, elə Türkiyənin özünə qarşı və Fransanın strateji rəqibi olan və hazırda Rusiya–Qərb qarşıdurması kontekstində Rusiyanın özünə qarşı atılmış bir addımdır. Yəni bizim üçün əsas odur ki, Cənubi

Qafqaz döyüş meydanına çevrilməsin. Çünki biz burada sülh yaratmışıq və bu sülhün daimi olmasını istəyirik. Ancaq təəssüflər olsun ki, yenə də Makron hakimiyyəti, makronizm bu reallığı dəyişmək istəyir. Bu mənə Fransanın artıq Avropada sürdürdüyü, yeni müharibələr yaratdığı tarixi xatırladır. Bildiyiniz kimi, 1815-ci ildə Napoleon müharibələrindən sonra Fransaya alçaldıcı, məğlubedici bir sülh imzalatmışdılar. 1815-ci il Vyana Konqresi. Hətta Fransanın əraziləri əlindən alınaraq bufer ölkələr yaradılmışdır. Məsələn, Niderland Krallığının və Belçikanın yeni dövlətlər kimi məhz Fransa sərhədlərində yaradılması ilə Fransaya bir çərçivə qoyulmuşdur. O vaxt Avstriya–Macarıstan, Osmanlı, Rusiya, Britaniya imperiyası Fransanın bu dağıdıcı fəaliyyətini görmək istəmirdilər.

Təəssüflər olsun ki, bu gün özünü Napoleon hesab eləyən Makron yeni Makron müharibələri aparmaq niyyətindədir və bu təcrübəsini Cənubi Qafqazda həyata keçirmək istəyir. Təbii ki, bu alınmayacaq. Çünki bu gün Qafqazda söz sahibi olan ən güclü liderimiz var, ordumuz var. Ölkəmiz, xalqımız, ordumuz birdir, vahiddir. Hesab edirəm ki, Makronun, Fransanın bu hərəkəti təkcə Azərbaycana qarşı deyil, beynəlxalq hüquqa qarşı da hesablanıb atılmış addımdır. Çünki Ermənistanın həddindən artıq silahlandırılması "Avropada adi silahlı qüvvələr haqqında" Müqaviləyə ziddir. Bu məsələlərlə məşğul olmaq əvəzinə, yaxşı olardı ki, Fransa hakimiyyəti daha çox öz müstəmləkə ərazilərində törətdiyi insan hüquqlarının pozulmasının qarşısını alsın. Bilirsiniz, bu günlərdə Kaledoniyada kanak xalqına qarşı yenidən güc tətbiq edilir, orada artıq öldürülənlər var. Hesab edirəm ki, Fransa militarizasiya siyasətindən əl çəkməli və öz

müstəmləkələrində, işğal altında saxladığı ərazilərdə insan hüquqlarını pozmaqdan da çəkinməlidir. Bu, daha yaxşı olardı. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Bilirsiniz ki, gündəliyimizdə 17 məsələ var. Gündəliyin ilk 3 məsələsi dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. Bu məsələlərin müzakirəsi ilə əlaqədar hörmətli hökumət üzvləri və nümayəndələri iclasımızda iştirak edirlər. Mən bir daha onları salamlayıram.

İndi isə gündəliyin 1-ci məsələsinə keçirik. "Azərbaycan Respublikasının 2024-cü ilin dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Tahir müəllim, qanun layihəsinə sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin. Buyurun.

**T.Mirikişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri, media nümayəndələri. Bildirmək istəyərdim ki, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisin plenar iclasında üçüncü oxunuşda müzakirə olunur. Biz birinci və ikinci oxunuşlar zamanı layihə haqqında geniş, ətraflı məlumat vermişik. Hər iki oxunuş zamanı həmkarlarım layihələr barədə rəy və təkliflərini səsləndiriblər. Bu çıxışlara, sual və təkliflərə qanun layihəsinin ikinci oxunuşu zamanı hörmətli maliyyə naziri Samir müəllim tərəfindən geniş şərh verilmişdir. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında üçüncü oxunuşda müzakirə edilən qanun layihəsinə dair layihə təşəbbüskarları tərəfindən dəyişiklik təklifi irəli sürülmüş və bu təklif komitədə

müzakirə edilərək qəbul edilmişdir. Belə ki, yeni edilən dəyişikliyə əsasən dövlət büdcəsinə Dövlət Gömrük Komitəsi xətti ilə daxilolmanın həcmi 500 milyon manat əvəzinə, 535 milyon manat artırılaraq 6 milyard 435 milyon manata çatdırılması təklif olunur. Qeyd edim ki, əlavə 35 milyon manat daxilolmaların əlavə dəyər vergisinin həcminin artması hesabına təmin olunacağı izah edilmişdir. Bu dəyişiklik nəticəsində dövlət büdcəsinin qeyri-neft-qaz gəlirləri 18 milyard 619 milyon manat təşkil edəcəkdir. Eyni zamanda, dövlət büdcəsinin xərclərində də Dövlət Gömrük Komitəsinin xərclərinin 35 milyon manat artırılması təklif edilmişdir.

Nəticədə dövlət büdcəsinin gəlirləri ilkin təqdim olunmuş rəqəmə nisbətən 0,1 faiz artırılaraq 36 milyard 388 milyon manat, yəni 35 milyon manat çox, dövlət büdcəsinin xərcləri isə ilkin təqdim olunmuş rəqəmə nisbətən 35 milyon manat və ya 0,1 faiz artırılaraq 39 milyard 742,3 milyon manat təşkil edəcəkdir. Dövlət büdcəsinin cari xərcləri ilkin təqdim edilmiş rəqəmə nisbətən 0,1 faiz artırılaraq 23 milyard 59,4 milyon manat təşkil edəcəkdir.

İcmal büdcə ilə bağlı. İcmal büdcənin gəlirləri ilkin təqdim olunmuş rəqəmə əsasən 0,1 faiz artırılaraq 43 milyard 515 milyon manat, xərcləri isə ilkin təqdim olunmuş rəqəmə nisbətən 0,1 faiz artırılaraq 45 milyard 626,8 milyon manat təşkil edəcəkdir. Mən ilkin təqdim olunmuş rəqəm deyəndə Milli Məclisin plenar iclasının ikinci oxunuşunda qəbul olunmuş layihədə olan rəqəmləri nəzərdə tutmuşam.

Beləliklə, yuxarıda qeyd olunan təkliflər nəticəsində "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda də-

yişiklik edilməsi barədə qanun layihəsində ediləcək dəyişikliklərin əks olunduğu son layihə isə hörmətli deputat həmkarlarıma artıq paylanmışdır. Hörmətli həmkarlar, beləliklə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi yekun olaraq indiyə qədər birinci və ikinci oxunuşlar zamanı aparılmış büdcə müzakirələrini kifayət qədər məhsuldar və ətraflı hesab edir. Hesab edirik ki, müzakirə etdiyimiz dövlət büdcəsində dəyişiklik layihəsi 2024-cü ildə ölkəmiz qarşısında yaranacaq çağırışlara layiqli cavab vermək və bütün istiqamətlərdə dövlət siyasətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacaqdır.

Qanun layihəsi ilə bağlı komitənin rəyi müsbətdir. Bunları nəzərə alaraq, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə möhtərəm cənab Prezident tərəfindən Milli Məclisə təqdim olunmuş qanun layihəsinin Milli Məclisin plenar iclasının üçüncü oxunuşda da qəbul edilməsini məqbul hesab edirik. Həmkarlarımı bir daha bu layihəni dəstəkləməyə dəvət edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, mən təklif edirəm, 2-ci və 3-cü məsələlərin də təqdimatına qulaq asaq. 2-ci məsələ "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 3-cü məsələ isə "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Bu qanun layihələrinə Əmək və sosial siyasət komitəsində baxılıb. Məlumat vermək üçün komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, xahiş edirəm, layihə haqqında məlumat verin. Buyurun.

**M.Quliyev**, *Milli Məclisin Əmək  və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli hökumət nümayəndələri, hörmətli media təmsilçiləri. Birinci və ikinci oxunuşlarda həm Dövlət Sosial Müdafiə Fondunun, həm də İşsizlikdən sığorta fondunun büdcə layihələri barədə ətraflı məlumat verilmişdir. Qısaca olaraq xatırlatmaq istəyirəm ki, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üçün dürüstləşdirilmiş gəlir və xərcləri bərabər olaraq 30 milyon manat artırılaraq 6 milyard 949 milyon 860 min manat təşkil edəcəkdir. İşsizlikdən sığorta fondunun 2024-cü il dürüstləşdirilmiş büdcəsi 4,7 milyon manat artırılacaqdır. Artım qeyri-büdcə sektoru üzrə baş verəcəkdir.

Hörmətli xanım sədr, ikinci oxunuş zamanı deputat həmkarlarımızdan hörmətli Razi Nurullayev, Vüqar Bayramov, Siyavuş Novruzov, Zahid Oruc, Aydın Hüseynov, Bəhruz Məhərrəmov, Tahir Kərimli, Fəzail Ağamalı və Sabir Rüstəmxanlı çıxış edərək, bütövlükdə, büdcə layihələrini dəstəklədiklərini bildirmiş, eyni zamanda,  bəzi deputat həmkarlarım seçildikləri dairədən ümumi sosial problemləri də qaldırmışlar. Biz sosial problemləri qaldıran deputat həmkarlarımızla əlaqə yaratdıq, birgə müzakirə etdik. Heç bir sual yoxdur.

Hörmətli Sabir Rüstəmxanlının Neftçala rayonunda ictimai işlərlə bağlı problemin olduğu barədə verdiyi məlumatı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi araşdırır. Bu gün bizə verilən məlumata görə, orada problem Neftçala Rayon Mənzil-Kommunal Təsərrüfat  və İstehsalat Birliyi ilə bağlıdır. Çünki burada ictimai işlər müştərək olaraq qəbul olunur və nəzarət edilir. Araşdırmalar aparılır və tədbir görülməsi üçün Neftçala İcra

Hakimiyyətinə məktub göndəriləcəkdir və nəticəsi barədə hörmətli Sabir müəllimə məlumat veriləcəkdir.

Eyni zamanda, ikinci oxunuş zamanı hörmətli əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev də sualları cavablandırmışdır. Bundan sonrakı məsələlər də diqqətimizdə olacaq. Hörmətli deputat həmkarlarımız bilməlidirlər ki, burada qaldırılan bütün sosial məsələlər komitə tərəfindən diqqətsiz qalmır, araşdırılır, deputatlarımıza da istər fərdi qaydada, istərsə də ümumi şəkildə məlumat verilir.

Büdcə layihələrinin mətnində dəyişiklik olmayıb. Komitənin üçüncü oxunuş üçün rəyi müsbətdir. Xahiş edirəm, üçüncü oxunuşda büdcə layihələrini dəstəkləyəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, hər iki məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Ona görə də, mən, Tahir müəllim, yenə də Sizdən xahiş edirəm, iki qanun layihəsi ilə bağlı rəy bildirin. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, həmkarım Musa müəllim kifayət qədər geniş məlumat verdi. Bizim komitənin də hər iki layihənin üçüncü oxunuşda qəbul edilməsinə rəyi müsbətdir. Həmkarlarımı layihəni bir daha dəstəkləməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xatırladım ki, üçüncü oxunuşdur, kiminsə sualı, sözü varsa...

Görürəm, yoxdur, ona görə mən qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, diqqətli olun, münasibət bildirin.

İndi isə "Azərbaycan Respublikasının 2024-cü il dövlət

büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
| --- | --- |
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, indi isə "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
| --- | --- |
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Mən iclasımızda iştirak edən hökumət üzvlərinə və nümayəndələrinə təşəkkür edirəm. Sağ olun.

Biz işimizə davam edirik, hörmətli həmkarlar. Qeyd edim ki, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Hər iki qanun layihəsi beynəlxalq sənədlərin təsdiqi ilə bağlıdır. Ona görə də müvafiq Konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul edilməlidir.

Beləliklə, gündəliyin 4-cü məsələsi "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında ümumvətəndaş pasportlarının sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, Azərbaycan pasportunun səlahiyyətləri, coğrafiyası genişlənir. Bu gün biz bu qanun layihəsini müzakirə edərək Azərbay-

cana dost olan, yüksək səviyyədə münasibətlərimiz təşkil edilən Mərakeş Krallığında ümumvətəndaş pasportlarının vizadan azad olunması ilə bağlı qanun layihəsini müzakirə edirik. İki ölkə arasında münasibətlərimizin yüksək səviyyədə olması özünü göstərir.

Hörmətli xanım sədr, keçən ilin sonunda Sizin Mərakeş Krallığına rəsmi səfəriniz, təşkil etdiyiniz Azərbaycan Respublikasının Ümummilli Liderinin yubileyinə həsr olunmuş təntənəli tədbirlərdə Mərakeş Krallığının parlament sədrinin burada iştirakı bir də göstərir ki, Azərbaycanla Mərakeş Krallığı arasında münasibətlər ən yüksək səviyyədə təşkil olunub.

Bu, heç də təsadüfi deyil. Bizim beynəlxalq münasibətlər çərçivəsində bir çox işlərimiz eyni istiqamətdə aparılır. Yaddan çıxarmaq lazım deyil ki, Azərbaycan Qoşulmama Hərəkatında Mərakeş Krallığı ilə bir yerdə çox yüksək səviyyədə əlaqələr qurdu. Əlaqələrimiz başqa beynəlxalq təşkilatlarda yüksək səviyyədə inkişaf edir.

Bizim komitəmiz bu qanun layihəsini yekdilliklə qəbul etməyi tövsiyə edir. Bu da bir reallıqdır ki, Azərbaycan təxminən 70-ə yaxın ölkə ilə diplomatik və xidməti pasportları, 20-dən çox ölkə ilə isə ümumvətəndaş pasportları ilə vizasız gediş-gəliş imkanına malikdir. Bu, özlüyündə çox böyük bir nailiyyətdir, Azərbaycanın müstəqilliyidir, Azərbaycan diplomatiyasının genişlənməsidir, Azərbaycan xalqının, Azərbaycan dövlətinin qüdrətini və gücünü göstərən bir amildir. Ona görə biz bu qanun layihəsinin qəbul edilməsinə tam şəkildə tərəfdarıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Gündəliyin 5-ci məsələsi "Azərbaycan Respublikası Hökuməti ilə Qambiya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik şəxslərin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Səməd müəllim, mən yenə də Sizdən xahiş edirəm, məlumat verəsiniz. Buyurun.

**S.Seyidov.** Çox sağ olun, xanım sədr. Yenə də biz növbəti istiqamətdə Azərbaycan pasportunun bütün dünyada nə dərəcədə hörmətə, nə dərəcədə qüvvəyə malik olmasının canlı şahidiyik. Qambiya Respublikası Afrikanın ən kiçik dövlətlərindən biridir. Ancaq əhəmiyyətinə, təsirinə görə, xüsusilə Qoşulmama Hərəkatında iştirakına görə çox böyük nüfuza malik olan bir ölkədir. Afrika ölkələri içərisində İslam dünyasının bir üzvü olan və dövlətimizlə ən yüksək səviyyədə münasibətlər quran Qambiya Respublikası ilə Azərbaycan arasında diplomatik pasportların viza tələbindən azad olunması haqqında qanun layihəsinin qəbul olunması Azərbaycanın milli maraqlarına tam uyğundur. Ona görə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi bunun tam lehinədir. Hörmətli həmkarlar, sizdən bu qanun layi-

həsinin qəbul olunmasını xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələlərə keçirik. Qeyd edim ki, gündəliyin növbəti 5 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. 6-cı məsələ "Məşğulluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Vüqar Bayramova söz verirəm. Vüqar müəllim, buyurun.

**V.Bayramov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Üçüncü oxunuşda təqdim olunan "Məşğulluq haqqında" Qanuna edilən dəyişikliklər sosial təminatın gücləndirilməsi baxımından aparılan islahatların tərkib hissəsidir. Bu qanun layihəsində olan dəyişikliklər həm yeni iş yerlərinin yaradılmasına, həm də peşə təhsilindən daha fəal şəkildə istifadə edilməsinə imkan verəcək.

Qanun layihəsi həm birinci, həm də ikinci oxunuşlarda geniş müzakirə olunmuşdur. İkinci oxunuşda hörmətli

həmkarım Bəhruz Məhərrəmov tərəfindən təkliflər təqdim edilmişdir. Mən hörmətli həmkarımla işçi qaydada görüşüb müzakirə aparmışam.

Eyni zamanda, qanun layihəsi Əmək və sosial siyasət komitəsində geniş müzakirə olunub. Qanun layihəsinin mətnində hər hansı bir dəyişiklik yoxdur. Hörmətli həmkarlardan qanun layihəsinə dəstək olmalarını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Hörmətli həmkarlar, sual yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 7-ci məsələ Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Hicran xanım Hüseynovaya söz verirəm. Hicran xanım, buyurun.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli sədr, hörmətli həmkarlar, media nümayəndələri. Qanun layihəsi cari il iyunun 21-də komitə iclasında üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə olunmuşdur. Əlavə rəy və təklif

daxil olmamışdır. Məlumatı nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım, Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.53dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumatı hörmətli Mahir Abbaszadə verəcək. Mahir müəllim, buyurun, məlumat verin.

**M.Abbaszadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox sağ olun, Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, komitəmizin rəyi müsbətdir, səsə qoyulmasını Sizdən xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Məsələyə dair rəy verməyi mən Kamal Cəfərovdan xahiş edəcəyəm. Buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Bizim komitə də lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Heç kimin sözü, sualı yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələ ilə bağlı məlumatı komitənin üzvü hörmətli Elnur Allahverdiyev verəcək. Elnur müəllim, buyurun.

**E.Allahverdiyev,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci və ikinci oxunuşlarda tam izah olunmuşdur. Ümumiyyətlə, qanunun mahiyyəti üzrə heç bir irad və təklif olmadığından olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Heç kimin sözü yoxdur. Mən

qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

10-cu məsələ  Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında  qanun layihəsidir. Hicran xanım, yenə də sizin komitənizin məsələsidir. Buyurun, məlumat verin.

**H.Hüseynova.** Bizim komitəmizdə üçüncü oxunuş üçün qanun layihəsinə baxılıb. Rəy, təklif yoxdur. Münasibət müsbətdir. Xahiş edirik, səsə qoyulsun. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 7 məsələ

qalır. Bu məsələlərin hamısı ikinci oxunuşda olan qanun layihələridir.  İndi biz 11-ci məsələyə keçirik. Bu məsələ də Ailə Məcəlləsində, “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Qanunda və digər 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İnsan hüquqları komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Z.Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli millət vəkilləri. Ötən dəfə layihə haqqında yalnız hörmətli Etibar Əliyev çıxış etmişdi. O da layihənin vacibliyini vurğulamışdı, o cümlədən çox uğurlu bir termin – “elektron xidmətlər təsərrüfatı” kimi ifadəni də əlavə etmişdi. Əminəm ki, konseptual fikirdir. Biz elektron hökumətdən danışırıqsa və 600-dən yuxarı elektron xidmətlərin həyata keçirildiyini vurğulayırıqsa, arzulayırıq ki, gələcəkdə bu sferada ayrıca bir qanun, hətta bəlkə də məcəllə hazırlana bilər. Orada meyarlar, texniki tələblər, səmərəlilik standartları və sairlə bağlı da konseptual fikirlər söylənmişdi. İndiki halda söhbət anlayışın qanunvericilik sisteminə gətirilməsindən gedir. Praktikada bu xidmətlər faktiki olaraq həyata keçirilir. Ona görə təklif veririk ki, layihəni səsə qoyaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə daha 3 komitədə baxılmışdır. Mən indi komitə nümayəndələrinə bir-bir söz verəcəyəm. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini, Tahir müəllim, Siz bildirəcəksiniz. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun. Hörmətli xanım sədr, bizim komitənin də rəyi müsbətdir. Zahid müəllim kifayət qədər

geniş məlumat verdi. Ona görə həmkarlarımı dəstəkləməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini hörmətli Nurlan Həsənov bildirəcək. Nurlan müəllim, buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Hicran xanım, rəyi özünüz bildirəcəksiniz? Buyurun.

**H.Hüseynova.** Komitəmizin rəyi müsbətdir. Xahiş edirik, səsə qoyulsun. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur, biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Ona görə də biz qanun layihəsinin səsvermə proseduruna keçəcəyik. Maddələr üzrə səs verəcəyik. Bu qanun layihəsi 4 maddədən ibarətdir. Mən onları iki-iki səsə qoyacağam. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

12-ci məsələ Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli deputat həmkarlar, Torpaq Məcəlləsində edilmiş dəyişikliklər barədə birinci oxunuşda ətraflı məlumat verildi və deputat həmkarlarım tərəfindən heç bir təklif səsləndirilmədi. İkinci oxunuş zamanı da komitəyə heç bir təklif daxil olmayıb. Ona görə səsə qoymaq olar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyənlər var. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Hörmətli sədr, hörmətli həmkarlar, media nümayəndələri. Mən yalnız 9-cu maddə ilə bağlı fikirlərimi bildirmək istəyirəm. 9.3-cü maddədə qeyd olunur ki, “torpaqların kateqoriyalara aid edilməsi və

onların bir kateqoriyadan digərinə keçirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun olaraq həyata keçirilir.

Hörmətli sədr, hörmətli həmkarlar, mən əvvəllər də bu məsələyə toxunmuşdum ki, biz bir çox hallarda qanunları qəbul edərkən onları hüquqi ekspertizadan keçirmirik. Bir araşdırma da aparılmır ki, bu norma qanunun sonradan sui-istifadəyə məruz qalmasına yol açacaq, yoxsa yox. İndi etdiyimiz bu dəyişikliklə müvafiq icra hakimiyyəti orqanına həm geniş miqyasda diskresion səlahiyyətlər, yəni öz mülahizələrinə görə tətbiq edəcəyi səlahiyyətlər veririk, həm də dispozitiv imkanlar yaradırıq. Yəni orqanın öz seçiminə əsasən davranışı. Hesab edirəm ki, biz qanunun özündə nəzərdə tutmalıyıq ki, torpaqların kateqoriyaları hansı hallarda dəyişdirilə bilər. Müvafiq icra hakimiyyəti orqanına öz mülahizələrinə görə qərar qəbul etmək üçün bu qədər geniş səlahiyyətlər verilməməlidir.

"Normativ hüquqi aktlar haqqında" Qanunun 64-cü maddəsində qeyd olunur ki, dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə halları hansılardır. Burada birinci "diskresion səlahiyyətlərin geniş olması", ikinci, "səlahiyyətlərin dispozitiv imkan kimi müəyyənləşdirilməsi" qeyd olunur. 64.1.9-cu maddədə isə qanundakı boşluqların icra hakimiyyəti orqanının normativ hüquqi aktları ilə doldurulması əksini tapır. Burada müvafiq icra hakimiyyəti orqanının öz normativ hüquqi aktı ilə bizim qanunda yaratdığımız o boşluğu aradan qaldırmasına imkan veririk. Bundan başqa, 64.7-ci maddədə yenə qeyd olunur ki, hüquqi və fiziki şəxslərin hüquqlarının dəqiq nizamlan-

maması yolu ilə diskresion səlahiyyətlərin və ya dispozitiv imkanların yaradılmamasına yol verilməmlidir. Hörmətli həmkarlar, mən bunları ona görə bir daha səsləndirirəm ki, biz burada müvafiq icra hakimiyyəti orqanına çox geniş diskresion səlahiyyətlər və dispozitiv imkanlar yaradırıq və bu da gələcəkdə qanundan sui-istifadə hallarına yol açmış olacaq.

Mən özümün rastlaşdığım bir hadisə ilə bağlı danışmaq istəyirəm. Mənə yaxın insanlar müraciət etmişdilər ki, Masazırda, qəsəbənin ortasında torpaq sahələri var və onların kateqoriyasını heç cür dəyişdirə bilmirlər. Amma ətrafda hamısı bunu edə bilib. Orada su yoxdur, kənd təsərrüfatı üçün də istifadə oluna bilməz. Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi bu barədə razılıq da veriblər. Amma bu məsələ Nazirlər Kabinetində ilişib qalıb və heç cür həll edilə bilmir. Həmin torpaq uzun illərdir, yararsız vəziyyətdədir. Ona görə hesab edirəm ki, biz bu məsələləri qanunvericilik qaydasında tənzimləməliyik. Yəni icra hakimiyyəti orqanlarına belə geniş səlahiyyətlər verilməməlidir.

Hörmətli sədr, bir məsələni də diqqətə çatdırmaq istəyirəm. Mən zaman-zaman parlamentdə məsələ qaldırdım ki, ya parlament, ya da Nazirlər Kabineti yanında bir qanunvericilik institutu yaradılsın. Sonradan 2022-ci il mayın 19-da cənab Prezident tərəfindən Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi yaradıldı. Artıq iki ilə qədər vaxt keçib. Mən bu gün mərkəzin veb səhifəsinə daxil oldum. Baxdım ki, həmin mərkəzin bu müddət ərzində fəaliyyəti nədən ibarətdir. 2024-cü il yanvarın 19-da Müşahidə Şurasının iclası keçirilib. Yeri gəlmişkən, qeyd edim ki, bu qanunvericilik təşəbbüsü mərkəzinin Müşahidə Şurasının 5 nəfərdən ibarət üzv-

lərinin hamısı vəzifəli şəxslərdir. Hesab edirəm ki, bu da onun səmərəliliyinə xeyli dərəcədə mənfi təsir göstərir. Orada qeyd olunur ki, bunlar maarifçilik işi ilə məşğuldurlar, qanunları tərcümə edirlər, onlara rəylər hazırlayırlar. Amma mərkəzin adının Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi olmasına baxmayaraq, bunların indiyə qədər bir dənə hüquqi ekspertiza apardıqlarına rast gəlmədim. Bizə bu qədər qanun gəlir. Bir dəfə qanunvericilik təşəbbüsü ilə çıxış ediblərmi? Orada bir tək hal var ki, Mülki Məcəllənin təkmilləşdirilməsi üçün işçi qrup yaradılıb. Qeyd olunur ki, hansı isə təlimlər keçirilir, ora vəzifəli şəxslər dəvət olunur, onlarla iş aparılır. Halbuki, qeyd etdiyim kimi, bu mərkəzin əsas məqsədi hüquqi ekspertiza və qanunvericilik təşəbbüsü olmalıdır.

Mən bir məsələyə də toxunmağı özümə borc bilirəm. Hesab edirəm ki, vaxtı ilə Prezident Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri Şahin Əliyevi ən çox tənqid edən şəxslərdən biri mən olmuşam. Amma Şahin Əliyev, heç olmasa, hansı isə məsələlərdə həm özünə, həm də müvafiq icra hakimiyyəti orqanının rəhbərlərinə nələrdə isə "yox" deməyi bacarırdı. Amma indi görürük ki, istənilən mərkəzi icra hakimiyyəti orqanı istədiyi qanunla bağlı oradan müvafiq rəy alır və sonra da o, qanunvericilik təşəbbüsü qaydasında bizim Milli Məclisə gəlir. Mən hesab edirəm ki, müvafiq icra hakimiyyəti orqanı, cənab Prezident özü bu məsələyə diqqət yetirməlidir. Müvafiq icra hakimiyyəti orqanlarına geniş səlahiyyətlər verən layihələr parlamentə daxil olmamalıdır. Onlar hüquqi ekspertizadan keçirilməlidirlər. Bunu da özümə borc bildim ki, sizlərin diqqətinə çatdırım. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Edilən dəyişikliyə birinci oxunuşda müsbət səs verdim, ikinci oxunuşda da müsbət səs verəcəyəm. Xeyli mütərəqqi qanundur. Ən azından irəliyə doğru atılmış bir addımdır. Kənd təsərrüfatı təyinatlı torpaqların məqsədli təyinatına çevik mexanizm yaradılır, üzərində tikinti aparılması qaydaları müəyyənləşdirilir və digər məsələlər daxil edilib. Amma bu dəyişikliklər, təəssüf ki, mövcud problemlərin hamısını həll edə bilmir. Bu gün bir çox kənd təsərrüfatı təyinatlı torpaq zəbt edilib, qanunsuz yollarla əldə edilib, qanuni sahiblərin əlindən alınıb və sair. Bunları sadalamaq istəmirəm, çünki ikinci oxunuşdur. Bir neçə sualım və fikirlərim var. Kənd təsərrüfatı təyinatlı torpaqlarda 5 hektar ərazinin 1 faizi həcmində tikinti aparıla bilər. Qanunun müvafiq maddəsinə görə, əgər ərazi 1 hektardırsa, daha azdırsa və yaxud daha çoxdursa, bu necə hesablanacaq? Ola bilsin ki, bunun cavabı var, mən başa düşə bilmədim.

Qanunun 5-ci maddəsində deyilir ki, bələdiyyələr bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların qeyri-kənd təsərrüfatı məqsədi ilə digər kateqoriyalara keçirilməsi ilə bağlı müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqana müraciət edir. Məsələ burasındadır ki, edir, amma nəticə yoxdur və istərdim, bu maddə daha aydın, səlis, məqsədli, məlum xarakter daşısın və konkret problemləri əhatə etsin. Biz onu müvafiq icra orqanının ixtiyarına buraxmayaq. Çünki onlar özləri öz mülahizələrinə görə hərəkət edəcəklər.

İkinci məsələ isə 9-cu maddə ilə bağlıdır. Hörmətli həmkarım Qüdrət Həsənquliyev artıq bununla bağlı danışdı. Mən də onun fikirlərini daha burada təkrar etmək

istəmirəm, o fikirlərə qoşuluram.

Daha üç məsələ haqqında danışmaq istəyirəm. Dediyim məsələlər və problemlər bu maddələri özündə ehtiva edən elementlərdir. Elə bu gün səhər İmişli rayon Bəhramtəpə qəsəbəsinin sakini 78 yaşlı Abdullayev Qüdrət Xasay oğlunu qəbul etdim. Qüdrət kişinin sıx kommersiya obyektləri arasında torpağı var və onu hərraca çıxara bilmir ki, yer örüş sahəsidir. Əgər örüş sahəsidirsə, o zaman digər yüzlərcə kommersiya və qeyri-kommersiya obyektləri, binaları necə tikilir? Bunu mübahisələndirmək istəmirəm. Çünki reallıq hamımıza bəllidir. Bir neçə dəfə burada səsləndirmişəm. Yenə də Torpaq Məcəlləsi ikinci oxunuşda müzakirə olunan zaman demək istəyirəm ki, analoji problemləri paket şəklində qanun layihəsinə daxil edib müzakirə etmək və mümkün olan məsələlərə birdəfəlik nöqtə qoymaq lazımdır. Yeri gəlmişkən, mən həmin ağsaqqalı artıq Əmlak Məsələləri Dövlət Xidmətinə yönləndirdim və onlarla danışdım. Çox hörmətlə qəbul edib, problem ilə məşğul olacaqlar. Amma bu, təbii ki, fərdi şəkildə həll olunmamalıdır.

Kənd təsərrüfatı torpaqlarında kütləvi evlər və kommersiya obyektləri tikilib. Kommersiya obyektlərinin qanuniləşdirilməsi ilə bağlı qanuna dəyişiklik edildi və yenə də nələrsə hazırlanır. Bütöv bir kəndin, qəsəbənin, yaxud onlarca qonşunun torpağının ortasında bir neçə sot torpaq sahəsi qalıb və icazə verilmir ki, vətəndaş ev və ya kommersiya obyekti tiksin. Mən o məsələni burada dəfələrlə qaldırmışam. Deyilir ki, yer kənd təsərrüfatı və ya örüş üçün nəzərdə tutulub. İnsanların əhatəsində, hasarın içərisində 2-3 sotda kənd təsərrüfatı məhsulları necə istehsal oluna bilər?

Dövlət Neft Şirkətinə məxsus torpaqlarda da kütləvi

evlər tikilib. Təbii ki, bunlar qanunsuzdur. Mən bilirəm ki, qanunsuz evlər tikilib. Bəzi evlər kimlərsə tərəfindən alınıb, yaxud kimlərsə tərəfindən vətəndaşlara satılıb. Yüzlərcə, minlərcə sakinin yaşadığı ərazilərdə də ev tikintisi üçün əldə olunmuş 2, 3, 5, 6 sot sahələr qalıb və onlara da tikinti üçün icazə verilmir. Xüsusən də SOCAR tərəfindən. Mən bunu başa düşürəm. Amma bu məsələlərin bir həlli yolu da lazımdır ki, biz bunu düşünək. Bu məsələ artıq, demək olar ki, 20-30 ildir, davam edir. Bu məsələlər, təbii ki, gərək həllini tapsın, hörmətli xanım sədr. İstərdim, bilim ki, bu problemlərlə bağlı hansı tədbirlər görülüb, planlar nədir. Əgər müvafiq komitə... İndi təəssüflər olsun ki, hökumət üzvləri getdi, bu məsələni onların da eşitməsi çox yaxşı olardı. Amma bu məsələlərlə bağlı bir aydınlıq gətirilsə ki, hansı planlar var, nə işlər görülür, bununla bağlı bir perspektiv varmı, bunu bilsək, yaxşı olardı. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Çox sağ olun. Xanım sədr, əziz həmkarlar. Torpaq Məcəlləsinə təklif edilən dəyişiklik son illər ərzində aqrar sektorda qəbul edilən ən yaxşı qanunvericilik aktlarından biridir və mütləq mənada dəstəklənməlidir. Xüsusən kənd rayonlarını təmsil edən həmkarlarımız da təsdiq edə bilər ki, indiyə qədər bu sahədə müəyyən boşluq var idi və qeyd edilən istiqamətdə bəzən selektiv yanaşmalara gətirib çıxarırdı. Bilirsiniz ki, kənd təsərrüfatı təyinatlı torpaqların bir kənarında istehsal, yaxud emal müəssisəsi tikmək üçün mütləq şəkildə torpağın təyinatının dəyişdirilməsi kimi tələb qoyulurdu. Bu da çox məşəqqətli bir prosesdir. Amma bu dəyişiklik ediləndən sonra artıq kənd təsərrüfatı istehsalı üçün əlavə imkanlar yaranacaq.

Mən indi ikinci oxunuşun tələbinə müvafiq olaraq, 13-1-ci maddəyə xüsusi fokuslanmaq istəyirəm. Bilirsiniz ki, qanunvericilik zamanla dəyişikliyə məhkumdur. Amma bu maddələr o qədər sadə və məqsədəuyğun hazırlanıb, inandırıcı deyil ki, yaxın illər ərzində əlavə redaktəyə ehtiyac duyulsun. Sadəcə 13-1-ci maddənin dördüncü hissəsində diqqət yetirilməli bir məsələ var. Qeyd edilir ki, tikinti əmsalından tam istifadə edildikdə torpaq sahəsinin əsaslı tikinti olmayan hissəsi başqa şəxsin mülkiyyəti və ya istifadəsinə keçdikdə torpaq sahəsinin həmin hissəsinin yenidən tikinti əmsalına cəlb edilməsinə yol verilmir. Bəli, bu, başadüşüləndir. Bu maddə məzmunca preventiv xarakter daşıyır. Mahiyyəti, məqsədi aydındır. Sadəcə, təsəvvür edin, bir fermer ətrafda birindən 1 hektar, digərindən 20 sot, 50 sot və sair torpaq alır, normal bir ölçü formalaşdırır. Lakin aldığı torpaqlar əvvəllər tikinti əmsalına cəlb olunubsa, artıq həmin fermerin yeni aldığı, vahid formaya gətirdiyi sahədə bu gün bizim etdiyimiz mütərəqqi dəyişiklikdən faydalanma imkanı olmayacaq. Bu mənada, hesab edirəm ki, bəlkə bu maddə üzrə hansı isə bir qeyd-şərt formalaşdırmağa ehtiyac ola bilər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Söz istəyirsiniz? Əli Hüseynli. Buyurun.

**Ə.Hüseynli**. Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli deputat həmkarlar, mən həmkarım Bəhruz müəllimin fikrinin bir hissəsini davam etdirmək istəyirəm. Çünki hesab edirəm ki, Torpaq Məcəlləsinə edilən dəyişiklik və oradakı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun hazırlayacağı qaydalar məhz bu qanunun kontekstində tamamilə doğrudur. Çünki elə məsələlər var

ki, onları parlament müəyyənləşdirir, o ictimai münasibətləri həll edir. Daha geniş ictimai münasibətlərdir. Amma digər normayaradıcı orqanlar da var. Onlar da qərarlar, qaydalar qəbul edirlər. Mən düşünmürəm ki, biz bu Torpaq Məcəlləsinə torpaqların aidiyyəti, onun dəyişməsi məsələsinə dair qaydaları salsaq, məsələni həll etmiş olarıq. İndiyə qədər bütün bu münasibətləri Nazirlər Kabineti həll edir. Bəhruz müəllim söylədi. Əslində, hazırda baş verən odur ki, torpaqların təyinatlarının vaxtı ilə qanunsuz formada dəyişdirilməsi halları olub. İndi Nazirlər Kabinetinin çox ciddi bir mövqeyi və ciddi bir nəzarət funksiyası var. Bu baxımdan o qaydaların xüsusi bir qanunla tənzimlənməsi, yaxud da Torpaq Məcəlləsində yer alması, hesab edirəm ki, həm məsələni həll etməz, həm də biz o məsələyə fayda verə bilmərik. Çünki orada spesifik biliklər lazımdır. O qaydaların qəbulu da məhz o sahəni, həm kənd təsərrüfatını, həm də torpaq məsələlərini tənzimləyən xüsusi bilgilər tələb edir.

O ki qaldı ümumiyyətlə, qanunvericiliyin qəbulu ilə bağlı məsələyə, hörmətli Qüdrət müəllim, mən əminəm, həm əvvəlki dövrdə, həm də indi qanunvericilik təşəbbüsü subyektləri kimlərin isə fikri ilə nə “hə”, nə də “yox” deməklə məşğul deyillər. Orada məqsəd normayaratma funksiyasıdır. Qanunvericilik təşəbbüsü subyektləri var. Ya Prezident Administrasiyasında, ya da bizdə hazırlanır. Bütün bu hazırlanma prosesində müvafiq icra hakimiyyəti orqanları işçi qrupu formasında iştirak edirlər. Bu da, təbiidir. Biz həmin işçi qrupunun nümayəndələrini qəbul edirik, kommunikasiya qururuq, onlarla komitələrdə görüşürük. Məgər bizim münasibətlər “hə”, yaxud da ki, “yox” deməklə qurulur? Biz çalışırıq ki, hansı isə münasibətləri tənzimləyək. Hesab edirəm ki, əksinə, son

dövrlərdə həm bizim qəbul etdiyimiz, həm də böyük bir hissəsini digər qanunvericilik təşəbbüsü subyektinin hazırladığı qanunlar hazırlanma dövründə ekspertizalardan keçməklə, həmçinin qəbulun şəffaflığı, hansı isə bir qeyri-peşəkar münasibətlərin mümkünsüzlüyü baxımından daha səmərəlidir.

Qüdrət müəllim, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi ilə bağlı dediniz. Bəli, ola bilər ki, bizim komitə ilə mərkəz arasında bəlkə daha sıx əməkdaşlıq qurulmasına ehtiyac var. Bu baxımdan biz bununla bağlı təkliflərimizi mütləq verərik və hesab edirəm ki, komitə ilə mərkəz arasında əməkdaşlığımızı dərinləşdirə bilərik.

**Sədrlik edən.** Sağ olun. Mən öz tərəfimdən deyə bilərəm ki, həmin mərkəzdə bir çox layihələr də hazırlanır. Onlar, eyni zamanda, layihə məsələləri ilə də məşğuldurlar.

Tahir müəllim, Siz Qüdrət müəllimin və Razi müəllimin dediyi məsələlərə indi cavab vermək istəyirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**T.Rzayev**. Hörmətli sədr, Əli müəllim artıq izah etdi. Mən də o söylənilənlərin tərəfdarıyam. Çünki müvafiq icra hakimiyyəti orqanı dedikdə, məlumdur ki, torpaqların təyinatının dəyişdirilməsi bilavasitə Nazirlər Kabinetindən keçir. Digər tərəfdən, kənd təsərrüfatı təyinatlı torpaqların təyinatının qismən dəyişdirilməsi o demək deyil ki, bu torpaqlar tamam başqa məqsədlər üçün istifadə ediləcək. Burada müəyyən qurğuların quraşdırılması nəzərdə tutulur. Əslində, bu, mülkiyyətçiyə şəraitin yaradılmasıdır, onun rahatlığı üçün çox vacibdir. Əgər hansı isə bir mülkiyyətçi burada məhsul yetişdirirsə, orada 3-5 gün işçi qalacaqsa, onun üçün sadə bir qurğu quraşdırılır ki, işçi

orada gecələsin, ona qayğı, diqqət göstərilsin. Bu mənadadır. Ona görə mən elə bilirəm ki, bu, aqrar sektorun inkişafına mühüm töhfə verən dəyişiklikdir. Burada torpaqların təyinatının dəyişdirilməsindən, yaxud qeyri-müəyyən məsələlərə yol verilməsindən söhbət getmir. Məsələ bundan ibarətdir ki, burada rahatlıq təmin olunsun, emal artırılsın.

Burada aydın yazılıb ki, bu torpaqlarda həcm nəzərə alınmır. Əgər 5 hektardırsa, orada müəyyən qurğular quraşdırıla bilər, istixanalar ola bilər, boru çəkilə bilər, yaxud orada su infrastrukturu yaradıla bilər, bunlara ölçülərə dair məhdudiyyətlər şamil olunmur. Bu qanun layihəsində hamısı aydın yazılıb. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ancaq Qüdrət müəllimin dediyində də həqiqət ondan ibarətdir ki, əgər insanlar şikayət edirsə, deməli, onlara düzgün cavab verilməlidir. Necə ki Siz indi bu izahı verməyə çalışırsınız, onlara da izah olunmalıdır. Seçicidir, əgər nə isə soruşursa, deməli, ona cavab verilməlidir.

Daha çıxış etmək istəyən yoxdur, hörmətli həmkarlar. İndi səsvermə proseduruna keçirik. Maddələr üzrə səs verəcəyik. Bu layihədə 2 maddə var. Xahiş edirəm, 1-ci maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
| --- | --- |
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi, çox sağ olun.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 13-cü məsələyə keçirik. Bu məsələ də Əmək Məcəlləsində və digər 2 məcəllədə, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Qanunda və digər 7 qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Musa müəllim, komitənin sədri kimi yenə də Sizdən xahiş edirəm, məlumat verin.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Birinci oxunuş zamanı qanun layihəsi barədə ətraflı məlumat verilmişdir. Bir daha xatırlatmaq istəyirəm ki, Əmək Məcəlləsinə və daha 10 qanuna təklif edilən dəyişikliklərin əsas məqsədi əmək münasibətlərinin rəqəmsal texnologiya əsasında müəyyənləşdirilməsinə və idarə olunmasına hüquqi baza yaradılmasından ibarətdir.

Qanun layihəsi qəbul olunduqdan sonra bir çox proseslər rəqəmsallaşdırılacaqdır və işçinin işə götürülməsi, əmək münasibətlərinə xitam verilməsi, əməyin təşkili, əmək haqqının ödənilməsi, mükafatlandırma, cəzalandırma, əməyin mühafizəsi, müxtəlif məşğulluq tədbirlərinin həyata keçirilməsi, sosial tərəfdaşlarla iş, vergi, məcburi dövlət sosial sığorta haqlarının yığılması, optimallaşdırılması, eyni zamanda, inzibati orqanlar arasında məlumat mübadiləsinin aparılması rəqəmsal texnologiya əsasında həyata keçiriləcəkdir.

Birinci oxunuş zamanı qanun layihəsi ətrafında hörmətli deputat həmkarımız, komitə sədri Zahid Oruc çıxış etdi. Qanun layihəsinin icrası ilə bağlı mexanizmlərin təkmilləşdirilməsi ilə əlaqədar dəyərli tövsiyələrini verdi. Zahid müəllimə komitəmizin minnətdarlığını bildirirəm.

Birinci oxunuşda səs verib qanunu dəstəkləyən bütün deputatlarımıza təşəkkür edirəm. Bildirmək istəyirəm ki, qanun layihəsinin mətnində dəyişiklik edilməmişdir. İkinci oxunuşda layihəni dəstəkləməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Qanun layihəsinə daha 2 komitədə baxılmışdır. Birinci, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini bildirmək üçün, Bəhruz müəllim, Sizdən xahiş edəcəyəm. Buyurun, məlumat verin.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini bildirmək üçün, Tahir müəllim, buyurun.

**T.Mirkişili.** Xanım sədr, bizim komitənin də rəyi müsbətdir. Həmkarlarımı dəstəkləməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Ona görə də səsverməyə keçəcəyik. Maddələr üzrə səs verməliyik. Qanun layihəsi 12 maddədən ibarətdir. Mən onları üç-üç səsə qoyacağam. Xahiş edirəm, indi 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 4-cü, 5-ci və 6-cı maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi.

İndi isə 7-ci, 8-ci və 9-cu maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

İndi isə 10-cu, 11-ci və 12-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. "Yol hərəkəti haqqında" Qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Kamal Cəfərova söz verirəm. Buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Birinci oxunuş zamanı geniş məlumat vermişəm. Hər hansı rəy və təklif olmadığından olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsini əsas kimi qəbul etməliyik. Hörmətli həmkarlar, xatırladım ki, ikinci oxunuşdur. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi.

Çıxış etmək istəyənlər var. Naqif Həmzəyev. Buyurun.

**N.Həmzəyev.** Hörmətli xanım sədr, söz verdiyinizə görə təşəkkür edirəm. Mən vaxtınızı çox almayacağam. Müəyyən edilmiş parklanma yerlərində enerji doldurmaq məqsədi ilə elektrik mühərrikli nəqliyyat vasitələrinin durması istisna olmaqla, nəqliyyat vasitələrinin parklanmasına görə cərimə 20 manat nəzərdə tutulubdur. Açığı deyim, bu, çox az məbləğdir. Çünki onsuz da, enerji doldurma məntəqələrinin sayı azlıq təşkil edir. Hər hansı bir avtomobili orada saxlayırlar ki, gün ərzində parklanmaya görə cərimə 20 manatdır. Fikirlərşirlər ki, bu cərimə böyük bir məbləğ deyil. Nəticə etibarı ilə çox sayda sürücü elektromobillərə enerji doldurmaqdan məhrum olur. Bu baxımdan, mən düşünürəm, buradakı cəriməni, heç olmasa, 40 manat etsək, daha yaxşı olar ki, müəyyən dərəcədə məsuliyyətli olsunlar.

Eyni zamanda, bilirsiniz ki, fiziki qüsurlu olanlar üçün də parklanma yerlərinə görə cərimələrin məbləği artırılır. Biz bunu dəstəkləyirik, buna ehtiyac var idi. Ancaq "Azparking" tərəfindən məhz həmin yerlərdə parklanmaya görə SMS vasitəsi ilə ödəniş edən şəxslərə xüsusi xəbərdarlıq edilsə, yaxşı olar ki, o sürücü avtomobilini düzgün yerdə park etmədiyini bilsin. Onlar çox vaxt bilmədən avtomobili orada park edirlər. Nəticə etibarı ilə həm də parklanmaya görə əlavə cərimə ödəmək məcburiyyətində qalırlar. Bunları aidiyyəti orqanlara çatdırsaq, çox

yaxşı olar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli millət vəkilləri. Əlbəttə, başqa şəraitdə bəlkə bu layihə, gerçəkdən də, günlərlə, həftələrlə geniş müzakirələrə səbəb ola bilərdi. Ona görə ki, tutumlu yanaşmalar var. Çünki ötən on illər ərzində Azərbaycan nəqliyyat sisteminə çoxlu yeni nəqliyyat vasitələri daxil olub. Amma bizim yollar uzun on illərin, bəlkə də yüz illərin məhsuludur. Baxmayaraq ki, ötən illər ərzində istər Bakı, istərsə də respublikanın digər ərazilərində yeni yollar, əsas magistrallar yaranıb. Bu proses daim dinamik olaraq dəyişməkdədir.

Hörmətli sədr, mən yalnız ona görə söz aldım ki, bu dəyişikliklər fonunda, yəni parklanma, kiçik elektrik nəqliyyat vasitələri, indi Naqif müəllimin toxunduğu digər elektrik cərəyanı ilə qidalanma və sair, sonda hamısının cərimələrini toplu halda artırmaqdayıq. Ancaq dərhal sual olunur: Biz nəqliyyat vasitələri sahiblərinə hansı yolu təklif edirik?

Çox uzağa getmək lazım deyil. İnanın ki, heç birimizin bu tribunaya şəxsi bir hikkəsini, bir mövqeyini, korporativ marağını gətirdiyini düşünmürəm. Çünki parlament üzvləri də yaxşı mənada şəffaf qaydada tanınırlar. Ancaq Parlament prospekti daxil, Hökumət evi, Nazirlər Kabineti, Administrasiya – bu zolaqda 5 günə yaxındır ki, ağır texnika toplanıb. Fədakar insanlardır, sadə işçi qüvvələridir. Ancaq mən indi 26-cı maddə ilə bağlı düşünürəm və küçəyə, yola baxıram. Mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olmayaraq, yol hərəkətinin təşkilinin perspektiv proqramlarını, kompleks sxemlərini və layihələrini hazırlayan, habelə bunları həyata keçirən fiziki və

hüquqi şəxslər ən sonda bu məsələləri razılaşdırmalıdırlar.

Bu parlament birinci növbədə qanunları yaradır, formalaşdırır. Qaydalar Nazirlər Kabineti vasitəsi ilə meydana gətirilir. İndi həmin qurum birdən qət edib bu ətrafda yolların abadlaşdırılmasını istəyib. Hansı əsasla? Doğurdan, bunun özü də sona qədər aydın deyil.

Hörmətli Mehriban xanım bir dəfə İçəri şəhərə gəldi. Xatırlayırsınız, Qala divarları ətrafında kampaniyalar başlamışdı. Onu da dövlət əleyhinə bir hibrid savaş elementinə çevirmişdilər. Mehriban xanım orada tarixi bir fikir söylədi ki, media turları təşkil edin, ictimai fikri hazırlayın, sonra addımlar atın, qərarları ondan sonra verin. Bizdə tam əskinə olur. Bir sıra hallarda işi görürlər, sonra cəmiyyətə nəyi isə izah etməyə başlayırlar.

Hamımız bu parlamentə daxil olarkən o çətinlikləri yaşayırıq. 5 gündə bu işi görürlər. Bu özü bir kompasdır, bir barometrdir, bunların ölkədəki yol siyasətini necə həyata keçirdiklərini görmək üçün diaqnostik bir elementdir. Əvvəla, asfaltı dəyişirlər. Sadə sual: Niyə? 2 il bundan əvvəl var idi, axı. Məsələn, indi Administrasiyanın qabağında bloklar qoyublar, o hissəsindən keçmək mümkün deyil. Ancaq mən yeni asfalta da baxdım. Peşəkar mütəxəssis olmayan, rusların sözü ilə, yəni kobud tərcümə ilə desək, "silahsız gözlə" baxırsan ki, eyni asfaltdır. Ola bilər, hansı isə tədbir öncəsi onlara tapşırıq verilib ki, bu hissələri düzəltsinlər. Belə demək olarsa, hakimiyyət massivi çevrəsində 5 gün min, 2 min, 3 min kvadrat olan bir ərazidə bütün bu ağır texnika savaş aparır. Ortada nəticə də yoxdur. O zaman cərimələri artırarkən yol sisteminə cavabdehlik daşıyan, yolu abad edə bilməyən, harada isə kələ-kötür, çuxur yaradan, nəqliyyat vasitələrinin işinə zərbə vuranlara qarşı da cərimələri

tətbiq etməliyik. Sizi əmin edirəm, onda görəcəksiniz ki, həqiqətən də, deyəcəyimiz "yol mədəniyyətdir, namusdur, qeyrətdir, pasportdur, milli kimlikdir" şüarı öz əksini tapacaq.

Mən hesab edirəm ki, bu dəyişikliklə 26-cı maddəni çıxaranlar planlaşdırma və sair əvəzinə, bilmirəm, nəyi qazanırlar. Amma mən gördüyümdən çıxış edərək deyirəm ki, müsbət nəticələrdən çox da əmin deyiləm. Amma bütün hallarda sənədə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamal müəllim, çıxış etmək istəyirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklifləri eşitdiniz. Buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Mən həmkarlarımın təkliflərini qeyd etdim. Cərimənin artırılması ilə əlaqədar həmkarım Naqif müəllimin təklifi barədə qanunvericilik təşəbbüsü subyektinə məlumat verəcəyəm. Həmkarımız həmçinin qeyd etdi ki, bəzən bu cərimələr bilmədən yaranır. Amma bilməmək insanları məsuliyyətdən azad etmir.

Eyni zamanda, hazırda müzakirə etdiyimiz qanun layihəsinin – "Yol hərəkəti haqqında" Qanunun 16-cı maddəsində açıq formada qeyd olunur ki, ödənişli parklanma yerlərində hər kəs üçün aydın görünən yerdə və oxuna bilən ölçülərdə parklanma qaydaları və məlumatları göstərilməlidir. Ona görə bu, istənilən halda görünür, qaydalarda açıq formada bildirilir. Hesab edirəm ki, buna görə qaydalarla bağlı xəbərdarlıq etmək kimi bir funksiyanın yaradılması qeyri-realdır.

Zahid müəllimin dediyi məsələlərlə bağlı. Bilirsiniz, bu layihə artıq 2 ildir ki, var. Çoxlu müzakirələrdən keçibdir, komitədə də çoxlu diskussiyalar aparmışıq, müxtəlif

ictimai müzakirələr olubdur. Fərqli yanaşmalar ola bilər. Mən təşəkkür edirəm ki, layihəni dəstəkləyir. Ancaq Zahid müəllimin qaldırdığı məsələ bu qanun layihəsinin birbaşa predmeti ilə əlaqəli deyil. İnfrastruktur məsələləri və müəyyən səlahiyyətlərlə bağlı məsələlər artıq növbəti müzakirələrin predmetidir. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsinə maddələr üzrə münasibət bildirməyinizi xahiş edəcəyəm. Bu layihədə 2 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs verməd i | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Elşən Musayevə söz verirəm. Elşən müəllim, buyurun.

**E.Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Mən layihə barədə birinci oxunuşda ətraflı məlumat vermişdim. İlk oxunuşdan sonra komitəyə heç bir müraciət daxil olmayıb. İkinci oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Heç kimin sözü yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 1 maddədən ibarətdir. Xahiş edirəm, bu maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

16-cı məsələ Ailə, Cinayət və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Hicran xanım, Sizə söz verirəm. Buyurun.

**H.Hüseynova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. İlk növbədə qanun layihəsinə təklif olunan əlavə və dəyişikliklərlə bağlı rəy bildirən hörmətli həmkarlarıma öz təşəkkürümü bildirirəm. Məlumdur ki, əhalinin reproduktiv sağlamlığının tibbi aspektləri ilə dövlətin demoqrafik siyasəti arasında sıx əlaqə mövcuddur. Bu mənada erkən nikah və qohum evlilikləri problemi sosial-iqtisadi əhəmiyyət kəsb edir. Erkən yaşda nikah və qohum evliliklərinin yayılmasına təkan verən amillər müxtəlif mənşəlidir. Lakin onlar bir-biri ilə sıx əlaqəli olub, biri digərindən qaynaqlanır və bunlar, əsasən, iqtisadi, mədəni, sosial, psixoloji amillərdir. Belə nikah faktları bu və ya digər ölkələrdə müxtəlif formalarda təzahür etsə də, kökündə, demək olar ki, eyni motivlər qalmaqdadır. Aparılan təhlillər də göstərir ki, bu cür evliliklərin təhlükələri və zərəri kifayət qədər çoxdur. Bununla bağlı həm komitə iclasında, həm ictimai dinləmədə, həm də plenar iclasda geniş müzakirələr aparıldı.

Burada İnzibati Xətalar və Cinayət məcəllələri ilə bağlı təkliflər verildi. Müvafiq olaraq Milli Məclisin Sosial qanunvericilik şöbəsi təklifləri qanunvericilik təşəbbüsü subyekti ilə çox intensiv surətdə müzakirə etmiş və hazırda da qeyd olunan dəyişikliklər məqsədəmüvafiq hesab edilməmiş, lakin gələcəkdə mütləq baxılması nəzərdə tutulmuşdur.

Eyni zamanda, maarifləndirmə və təbliğat işlərinin aparılması və bu prosesdə millət vəkillərinin də aktiv iştirak etməsi məsələsi də səsləndirildi. Xanım sədr, Siz bu təşəbbüsü dəstəklədiniz. Əlbəttə ki, bu, çox vacibdir. Millət vəkilləri qanun layihəsinin əhəmiyyəti barədə vətəndaşları məlumatlandırmalı, bu dəyişikliyin onların özünə, övladlarına müsbət təsirini izah etməlidirlər.

Qeyd edim ki, bizim komitəmizdə qanun layihəsinə ikinci dəfə baxılmışdır və Milli Məclisin müzakirəsinə tövsiyə olunmuşdur. Məlumatı nəzərə almağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Mən komitənin rəyini bildirmək üçün sözü komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli müəllimə vermək istəyirəm. Buyurun, Əli müəllim.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Birinci oxunuş zamanı bizim komitənin nümayəndəsi hörmətli Əminə xanım geniş məlumat vermişdi. Mən də fürsətdən istifadə edib, hörmətli sədr, həmkarlarıma, komitə sədri həmkarlarıma – Fazil müəllimə, Zahid müəllimə, digər həmkarlarıma təşəkkür etmək istəyirəm ki, bu qanun layihəsinin həm də hüquqi və dünyəvi dövlətçilik kontekstində əhəmiyyətini vurğuladılar. Hesab edirəm ki, bu, çox ciddi bir mövqedir. Xüsusilə də Hicran xanımın məruzə etdiyi məsələlərin praktiki tətbiqi üçün İnzibati və Cinayət məcəllələrindəki sanksiyalar da çox vacibdir. Bununla bağlı bizim rəyimiz müsbətdir.

Xanım sədr, onu qeyd etmək istəyirəm ki, 176-2-ci maddənin qeyd hissəsində yaş fərqinin 5 ildən çox olmaması ilə bağlı təklifi qanunvericilik təşəbbüsü subyektinə çatdırmışıq. Erkin müəllim son iclasda belə bir çıxış etmişdi. Bununla bağlı qərarı üçüncü oxunuşda çatdıracağıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Müzakirəyə yazılanlar var. Fazil Mustafa. Buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Ötən dəfə bu məsələ ilə bağlı konseptual fikirlərimi diqqətə çatdırdığıma görə bu dəfə ikinci oxunuşun tələblərinə uyğun olaraq, konkret maddələr üzrə bəzi fikirlərimi çatdırmaq istəyirəm. 189-2-ci maddədə yetkinlik yaşına çatmayan şəxslərin erkən evliliyi ilə bağlı mərasimlərin keçirilməsi nəzərdə tutulur. Fikrimcə, biz burada ifadələri bir qədər dəqiqləşdirməliyik. Yetkinlik yaşına çatmayan şəxslərin evliliyi erkən evlilikdir. Ya biz bu "erkən evlilik" ifadəsini, ümumiyyətlə, çıxarmalıyıq, ya da 16 yaşına çatmamış şəxslərin evliliyini, bütövlükdə, erkən evlilik kimi qiymətləndirməliyik. Yəni ifadələr bir-biri ilə uzlaşmır. Bu baxımdan da mən hesab edirəm ki, biz, ümumiyyətlə, "erkən evlilik" ifadəsini çıxarmalıyıq. Yetkinlik yaşına çatmayanların, yaxud da 16 yaşına çatmamış şəxslərin evliliyi artıq faktiki olaraq erkən evlilik kimi qiymətləndiriləcəkdir. Çünki qanun yetkinlik yaşına çatmayan şəxslərin evliliyini qadağan edir. Bu məsələdə də konkret sanksiyalar tətbiq edilir. Bu baxımdan da bu məsələyə diqqət yetirilməlidir.

189-2.1-ci maddədə "ictimai iaşə obyektlərini idarə edən şəxslər tərəfindən yetkinlik yaşına çatmayan şəxs-

lərin erkən evliliyi ilə bağlı mərasimlər” ifadəsi var. Məncə, burada “şəxslərin və ya şəxslərdən birinin” qeyd edilməlidir. Çünki bir çox hallarda yetkinlik yaşında 2 şəxsin evliliyindən söhbət getmir. Həm də yetkinlik yaşına çatmış bir şəxslə bu yaşa çatmamış bir şəxsin evliliyindən söhbət gedə bilir. Ona görə də bu, həmin kateqoriyanın hamını əhatə etməsi baxımından vacibdir.

Nəhayət, ən prinsipial məsələlərdən biri 189-2.3-cü maddədə nəzərdə tutulan yetkinlik yaşına çatmayan şəxslər barədə dini kəbinkəsməyə görə sanksiyaların müəyyən olunmasıdır. Biz o zaman dini kəbinkəsməni dövlət olaraq tanıyırıq, status veririk? Yəni yetkinlik yaşına çatan şəxslərə dini kəbinkəsmə dövlət tərəfindən məqbul sayılırmı? Əgər biz dünyəvi dövlətin prinsiplərini tətbiq ediriksə, buna hüquqi bir status verməyimizin nə anlamı var? Mənə elə gəlir ki, biz qanunda, ümumiyyətlə, dini kəbinkəsmə terminini istifadə etməməliyik. Bunu, ümumiyyətlə, qanundankənar bir fəaliyyət növü kimi qəbul etməliyik. Əgər kimsə hansı isə şəkildə dövlətin rəsmi qaydada nikah sistemi çərçivəsində bu proseduru həyata keçirmək istəyirsə, hər hansı bir mollanın yanında özünə nə isə yazdırar, adını kəbin qoyar. Bu onun öz işidir. Amma bütövlükdə, bizim bu proseduru tanımağımız doğru deyil. Mənim fikrimcə, yetkinlik yaşına çatmayan şəxslər, çatan şəxslər barədə dini kəbinkəsmə anlayışını dövlət hansısa bir hüquqi prosedur kimi, hüquqi bir status kimi tanımamalıdır və bunu qanundankənar bir proses kimi qiymətləndirməlidir. Yeganə qanuni nikah qaydası ancaq Azərbaycan dövlətinin səlahiyyət verdiyi qurumlarda olur.

Bəzən əsaslandırmağa çalışırlar ki, bu prosedur bir az savadlı mollalar tərəfindən aparılsa, yaxşıdır. Belə bir şey

ciddi səslənmir. İstər savadlı, istərsə də savadsız olsun. Biz bu prinsipləri qorumasaq, gələcəkdə bunun hansı isə şəkildə nəticələrini də görəcəyik. Hazırda bu,Türkiyədə imam nikahı və ya başqa adlar altında geniş yayılıbdır. Əslində, bununla evlilik, ailə quruluşunu dağıtmaq sistemi daha çox önə çıxır. Ona görə də, məncə, biz hüquqi baxımdan konkret terminoloji dəqiqliyə getməliyik və bu statusu, bütövlükdə, tanımamalıyıq. Mənim fikrim budur. Amma insanların öz inancı, yanaşması varsa... Onsuz da kimsə fərdi qaydada fala baxdırmağa da gedir, yaxud deyir ki, bu qabdakı suyu üfürüb içsəm, sağalacağam və sair. Bu insanlar, onsuz da, mövhumat, xurafat variantlarından istifadə edirlər. Məncə, kəbinkəsməni də bu kateqoriyada qiymətləndirsək, daha doğru olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Təqdim edilmiş qanun layihəsi kifayət qədər mütərəqqidir. Sağlam insan, sağlam cəmiyyət kimi əhəmiyyətli məqsədə xidmət edir.

Deyildiyi kimi, Azərbaycan hüquqi, dünyəvi dövlətdir və ölkəmizdə bütün münasibətlər sistemi, davranışlar və hərəkətlər qanunla tənzimlənməlidir. Qanundankənar hər hansı bir hərəkət dövlətimizin söykənmiş olduğu Konstitusiyanın müvafiq müddəalarına ziddir və qəbul edilən deyil. Bu baxımdan kifayət qədər ciddi mahiyyət kəsb edən ailə institutu da istisnalıq təşkil edə bilməz. Ona görə də evliliklə bağlı birinci yanaşma – evlilik istəkli olanların rəsmi dövlət qeydiyyatından nikahdan keçməsidir. Nikah olmadan hər hansı bir kəbin, hər hansı bir başqa hərəkət qanundan kənardır və bu, qanunla tənzimlənərək Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində öz

əksini tapmalıdır. Düşünürəm ki, bu, mütləq olaraq qanunun vacib predmetlərindən biridir.

Digər tərəfdən, hörmətli həmkarım Fazil Mustafanın söylədiyi fikir də diqqəti cəlb edir. Lakin başqa bir sual ortaya çıxır ki, istənilən münasibətlər sistemində yaranmış bu və ya digər məsələ ənənəvi xarakter daşıyırsa, illərdən bəri cəmiyyətimizin davranış normalarına çevrilibsə, düşüncələrimizdə, ailə münasibətlərində xüsusi olaraq valideynlər tərəfindən birmənalı şəkildə qəbulolunma halına gəlibsə, bu hansı halda tənzimlənməlidir? Mənə elə gəlir ki, yenə də qanunla tənzimlənməlidir. Əgər bunu qanunun predmetindən çıxarsaq, belə çıxır ki, biz istər-istəməz hansısa bir şəkildə kəbinin yazılmasına, evliliyə təqdim olunmasına geniş imkanlar açırıq. Orada qanuni və qanunsuz şəkildə fəaliyyət göstərən mollalar kəbin kəsməklə məşğul olacaqlar və sair. Əgər kəbin məsələsi Azərbaycan xalqının ailə tənzimində, ailə münasibətlərində varsa, yaxşı olar ki, bu, qanunla tənzimlənsin və kəbinkəsilmə ilk növbədə nikahı olmayan insanlara tətbiq edilməsin, bu, qanunla qadağan edilsin.

Ölkəmizdə, demək olar ki, bütün rayonlarda məscidlərdə rəsmi axundlar və Dini Qurumlarla İş üzrə Dövlət komitəsi, Azərbaycanın Ruhani İdarəsi tərəfindən qeydiyyata alınan rəsmi din xadimləri fəaliyyət göstərirlər. Kəbinlər ayrı-ayrı yerlərdə deyil, məhz məscidlərdə, rəsmi yerlərdə və təbii ki, nikah da nəzərə alınmaqla yazılsın. Bəlkə biz bununla bağlı məsələdə müəyyən dərəcədə qayda-qanun yarada bilərik. Qanunla tənzimlənməyən hər hansı bir hərəkətin və davranışın qarşısını almaq mümkün deyil.

Mənim ikinci təklifim 12-ci maddə ilə bağlıdır. Dediyimiz kimi, bu, sağlamlığa və demokratik siyasətimizə,

cəmiyyətimizin sağlam insanlarının formalaşmasına xidmət edən bir yanaşmadır. Məncə, bu, kifayət deyil. Burada hörmətli Hicran xanım da ayrı-ayrı ölkələri misal gətirərək qohumluq dərəcəsinin 3-cü və 4-cü kateqoriyasının ayrı-ayrı ölkələrdə tətbiqini qeyd etdi. Yaxşı olmazmı ki, biz 12.02.03-cü maddəyə 3-cü dərəcəli qohumluq dərəcəsini də şamil edək? Yəni söhbət əminəvədən, xalanəvədən, bibinəvədən gedir ki, onlar da, mənə elə gəlir, nəsil xəstəliklərinin və digər xoşagəlməz halların daşıyıcılarıdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Emin Hacıyev. Buyurun.

**E.Hacıyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, mən də bu dəyişiklikləri mütərəqqi hesab edirəm, dəstəkləyirəm və səs verəcəyəm. Bu, genofondumuzun qorunmasına, xəstə uşaqların dünyaya gəlməsinin qarşısını almağa yönələn addımdır. Necə ki bir çox ölkələrdə baba, yaxud nənə ümumi olan şəxslər arasında nikahın bağlanması qadağan edilir, bizdə də bu addımın atılması alqışlanmalıdır.

Biz müsbət dəyərləri, xalqımızın sağlam ənənələrini saxlamaqla yanaşı, müasir dövrün çağırışları ilə uyğun gəlməyən ənənələrdən də xilas olmalıyıq. Etiraf edək ki, bəzən buna cəmiyyətin özü nail ola bilmir. Belə olanda dövlətin təsir gücündən, hüquqi tənzimləmələrdən bir alət kimi istifadə olunmalıdır. Hesab edirəm ki, təqdim olunan bu qanun layihəsi məhz belə missiyanı yerinə yetirir. Bununla belə qanunun tətbiqində yarana biləcək bəzi məqamlar da diqqətə alınmalı və önləyici tədbirlər görülməlidir.

Çoxəsrlik adət-ənənənin qanunvericiliklə tənzimlənməsi, yəqin ki, ilk illərdə müəyyən çətinliklərə səbəb olacaq. Suallar yaranır: Bu cür qeyri-rəsmi nikahlardan uşaqlar

dünyaya gələrsə, bu halda sənədləşmələr necə aparılacaq? Yaxud bu nikahlar xarici ölkələrdə bağlanarsa, bu halda bu prosesə necə nəzarət ediləcək? Ata, ana adı, soyadlar fərqli olduğu halda, bunu necə müəyyən etmək mümkün olacaq? Yəni qanun layihəsinin qəbulu ilə yanaşı, onun icra və nəzarət mexanizmlərinin də dəqiqləşdirilməsinə ehtiyac var. Eyni zamanda, paralel olaraq yaxın qohum evliliklərinin doğurduğu problemlər, xəstəliklər, genofondumuza vurduğu fəsadlarla bağlı maarifləndirmə tədbirləri görülməlidir. Cəmiyyətimiz bu stereotiplərdən, təhlükələrdən şüurlu şəkildə kənar olmalıdır.

Qanunvericilikdə erkən nikahların qarşısını alacaq dəyişikliklə bağlı fikir bildirmək istərdim. Yeniyetmə yaşında, hətta bəzən azyaşlı qızların evləndirilməsi elə problemlərdəndir ki, bu məsələyə cəmiyyətin ictimai qınağı illər ərzində yetərli səviyyədə olmadı. Bəs yeniyetmə evliliyini doğuran səbəblər nədən qaynaqlanır? Hesab edirəm ki, bu qanun layihəsi ilə yanaşı, bu səbəbləri yaradan faktorlar üzərində də düşünməliyik. Burada qeyd etdiyim ənənələrlə yanaşı, həmin kateqoriyaya aid qızların və ailələrinin onlarla bağlı karyera planlamasının olmaması da təsir edir. Bu baxımdan yerlərdə məhz hər bir rayon üzrə çox profilli peşə təhsili sistemi qurulmalıdır ki, ali təhsilini davam edə bilməyənlər bu təhsili əldə etsinlər. Yəni keyfiyyətli və əlçatan peşə təhsilinə nail olmalıyıq ki, gənclər əmək bazarında öz yerlərini tuta bilsinlər.

Digər tərəfdən, bəzi iş yerlərini məhz peşə təhsilini qazanan şəxslərə təqdim etməliyik ki, onların peşə təhsilinə motivasiyası olsun. Etiraf etmək lazımdır ki, hazırda təhsil sistemi ilə əmək bazarı arasında bir uyğunsuzluq mövcuddur. Yəni formal olaraq ali təhsilli mütəxəssislər çox olduğu halda, gerçəkdə, sözün əsl

mənasında, həqiqi mütəxəssis çatışmazlığı yaşanır. İşçi qüvvəsinin ixtisaslarının işə götürənlərin ehtiyaclarına uyğun gəlmədiyi bir bacarıq boşluğu yaranmaqdadır və bu, iqtisadi artıma və rəqabətə mane ola bilər. Ölkədə əksər hallarda peşə təhsilli mütəxəssislər çatışmır. Onlar xaricdən cəlb edilməli olurlar. Düzdür, son illərdə ölkədə peşə təhsilinin inkişafına xüsusi diqqət yetirilir. Bu sahəyə əvvəlki illərlə müqayisədə marağın artması müşahidə olunur. Amma bu proses ləng gedir. Azərbaycanda hər il orta məktəblərdən məzun olan təxminən 100 nəfərin yalnız 10-12 faizi peşə təhsili müəssisələrinə yönəlir. Müqayisə üçün deyim ki, Almaniyada bu rəqəm 50-60 faiz, İsveçrədə 60-65 faiz, Niderlandda 40 faizdir. Hesab edirəm ki, Azərbaycanda peşə təhsili daha çevik hala gətirilməli, müxtəlif imtiyazlar vasitəsi ilə daha çox gənc peşə təhsili almağa stimullaşdırılmalıdır. Sənayelərin ehtiyaclarına cavab verən yüksək keyfiyyətli təhsil sistemini təmin etmək üçün peşə təhsili kurrikulumu yenilənməli, praktiki təlim imkanları üçün bizneslərlə tərəfdaşlıq gücləndirilməlidir.

Peşə təhsili sistemi iqtisadiyyatın drayverinə çevrilməlidir. Bu sahədə beynəlxalq təcrübədən yararlanmaqda böyük fayda var. Peşə təhsilinin inkişaf etdiyi Almaniya, İsveçrə, Yaponiya kimi ölkələr sinifdə öyrənməklə iş yerində praktiki təlimi birləşdirən dual ikili peşə təhsili və təlim sistemi ilə məşhurdur. Bu sistem mühəndislik, texnologiya, İKT, turizm və kənd təsərrüfatı kimi sahələrdə ixtisaslı işçilər hazırlamaq üçün yüksək qiymətləndirilir. Azərbaycanda da dual təhsil proqramının tətbiqinə başlanılıb. 2023–2024-cü tədris ilində 20 peşə təhsili müəssisəsini əhatə edən bu mütərəqqi yanaşmanın əhatə dairəsinin genişləndirilməsinə ehtiyac var.

Təbii ki, qiymətli bilik və bacarıqlar əldə etmiş mütəxəssislər üçün ən yaxşı stimul yüksək əmək haqqı ilə yanaşı, müəyyən imtiyazlar və güzəştlərdir. Təklif edərdim ki, ölkəmizdə müxtəlif müəssisələrdə çalışan peşə təhsilli mütəxəssislər güzəştli şərtlərlə mənzil, həmçinin kreditlər əldə etmək imkanı ilə təmin edilsin. Bu kimi hallar gənclərin erkən yaşda karyera planlamasına müsbət təsir edən addımlar olardı. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. İkinci oxunuşun tələbinə müvafiq olaraq, Ailə Məcəlləsinin 12.0.2-1-ci və 12.0.2-2-ci maddələri üzrə "bioloji qohumluq" ifadəsi, fikrimcə, burada məqsədlərimizi nisbətən məhdudlaşdırır. Çünki bioloji övladla övladlığa götürülmüş şəxs arasında hüquq, qanun heç bir fərq görmür. Məncə, biz indi bioloji və hüquqi fakt arasında sərhəd qoymaqla dəyərləri dağıtmamalıyıq. Ona görə də hesab edirəm ki, biz, sadəcə baba, nənə, əmi, dayı, bacı, qardaş ifadələri ilə kifayətlənsək, daha yaxşı olar. Ümumilikdə, layihəni dəstəkləyirəm. Mütərəqqi, tarixi layihədir. İstənilən halda ləngimədən qəbul edilməlidir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Müxtəlif təkliflər oldu. Hicran xanım, təbii ki, təkliflərə də sonra Siz baxacaqsınız.

Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, mən qanun layihəsinə maddələr üzrə münasibət bildirməyinizi xahiş edəcəyəm. Layihədə 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam. Birinci iki maddəyə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyacağam. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Sonuncu 17-ci məsələ "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə

Əmək və sosial siyasət komitəsində baxılıb. Musa müəllim, yenə də özünüz məlumat verəcəksiniz? Buyurun, söz Sizindir.

**M.Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunun 3-cü maddəsinə dəyişiklik təklif olunur. Bu dəyişikliyin mahiyyəti barədə birinci oxunuş zamanı ətraflı məlumat vermişik. İkinci oxunuşun tələblərinə uyğun olaraq, qeyd etmək istəyirəm ki, bu dəyişiklik yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi halda, habelə uçota alınmış şəxsə sonradan şəhid statusu verilərsə, onun mənzil növbəsi digər ailə üzvlərinə keçirilir. Olduqca proqressiv bir layihədir və hesab edirəm ki, şəhid ailələrinin sosial müdafiəsini gücləndirməyə xidmət edəcəkdir.

Hörmətli xanım sədr, birinci oxunuşda müzakirələr zamanı, hörmətli deputat həmkarlarımız Tahir Rzayev, Elman Nəsirov, Əli Məsimli və Sahib Alıyev çıxış edərək qanun layihəsini dəstəkləmişlər. Çıxış edən və qanun layihəsini səs verərək dəstəkləyən bütün deputat həmkarlarımıza komitənin minnətdarlığını bildirirəm.

Eyni zamanda, burada hörmətli deputat həmkarlarımızın qaldırdığı suallara cavab vermək istəyirəm. Hörmətli Elman Nəsirov məsələ qaldırmışdı ki, şəhid ailələrinə və qazilərə verilən evlərin özəlləşdirilməsi məsələsinə baxılsın. Bununla əlaqədar bildirmək istəyirəm ki, tək şəhid ailələri və qazilərə belə evlər verilmir. Eyni zamanda, Çernobıl qəzasında əlil olmuş şəxslərə, onların ailə üzvlərinə, bu səbəbdən I qrup əlil olmuş şəxslərə, valideyn himayəsindən məhrum olmuş və uşaq müəssisələrində böyümüş şəxslərə də belə evlər tikilir, verilir.

Amma 2010-cu ilə qədər olan praktika göstərdi ki, bir çox hallarda bu mənzillər özəlləşən kimi satılır. Sonradan həmin ailə üzvləri də əlavə problemlərlə üzləşirlər və yenidən müraciət edirlər. Ona görə də Mənzil Məcəlləsi qəbul olunarkən bu məsələnin dayandırılması, yəni özəlləşdirilməsi qadağan edilmişdir. Ancaq bunu da deyim ki, hazırda bu məsələ müzakirə mövzusudur və müvafiq icra hakimiyyəti orqanlarında hər hansı bir formada özəlləşdirmək imkanının tapılması ilə bağlı araşdırmalar aparılır. Yaxın vaxtlarda belə bir nəticə olarsa, mən sizə məlumat verəcəm.

Hörmətli Əli Məsimli məsələ qaldırmışdı ki, 2025-ci ilin sonuna qədər bütün qazilərin və şəhid ailələrinin mənzillə təmin olunması məsələsi öz həllini tapacaqmı? Bəli, cənab Prezidentin tapşırığı var və bu sahədə də işlər aparılır. Birinci oxunuşda qeyd etdiyim kimi, keçmiş məcburi köçkünlər üçün tikilmiş və onlara verilməsi nəzərdə tutulan 6365 mənzilin qazi və şəhid ailələrinə verilməsi ilə bağlı da cənab Prezidentin göstərişi var. Artıq bu işlərə başlanılıbdır və demək olar ki, 2025-ci ilin sonuna qədər bütün qazi və şəhid ailələri mənzillərlə təmin olunacaqdır. Layihənin mətnində bir dəyişiklik yoxdur, komitə üçüncü oxunuşa hazır hesab edir. Milli Məclis üzvlərindən xahiş edirik ki, ikinci oxunuşda da layihəni dəstəkləsinlər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin. Səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi, çox sağ olun.

Müzakirəyə keçirik. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanuna edilən dəyişikliyi həvəslə dəstəkləyirəm, səs verdim və verəcəyəm. Hörmətli xanım sədr, mənim hər zaman qaldırdığım bir məsələ var. Elə şəhid ailələri var ki, oradakı üzvlərin 70-dən yuxarı yaşları var. Tanıdıqlarım içərisində 88 yaşlı olanlar da var. Mən onlar üçün növbəsiz olaraq evlərlə təminatı məsələsini qaldırırdım. Bunu, demək olar ki, 4 ildir deyirəm, amma məsələ həllini tapmır. Bu qanunun qəbul edilməsi ən azından onların varislərinin həmin evlərə sahiblənməsi üçün şərait yaradır. Çox gözəl qanundur. Mən Musa müəllimə də, qanunu göndərənlərə də təşəkkür edirəm.

Mənim bir təklifim var, hörmətli xanım sədr. Görüşdüyüm şəhid ailələri içərisində yaşlı, cavan nəsil var. Əsasən, yaşlı nəsil içərisində Birinci Qarabağ müharibəsindən qalan, həyat şəraiti hələ də çox ağır olan şəhid ailələri tanıyıram. Doğrudan da, vəziyyətləri ağırdır. O ailə, ola bilsin, bundan sonra 1-2 il, bəlkə də 1 ay yaşasın. Amma aidiyyəti yoxdur, hər bir insan üçün həyat bir gün də yaxşı olsa, daha normaldır, daha ədalətlidir, humanistdir. Ona görə də mən xahiş edirəm ki, bu qanunda bir dəyişiklik edək. Bəlkə indi mümkün olmayacaq. Amma nəzərdən keçirilsin ki, o cür ehtiyacı olan ailələrin növbəsi önə salınsın.

Keçən dəfə hörmətli Sahil müəllim Babayev dedi ki, biz kiminsə növbəsinə kimisə yazmaqla bu şəkildə ədalətsizlik edə bilmərik. Yaxşı, axı, 77, 88, 90 yaşlı şəhid ailəsi ilə hər hansı 30-40 yaşlı ailə rəqabət apara bilməz. Heç onlar özləri də inciməz ki, yaşlı bir şəhid ailəsi onların yerinə mənzillə təmin olunsun. Çünki onun həyatı, demək olar ki, bitir. O baxımdan mən bunu daha ədalətli sayıram. Bu məsələ ilə bağlı nə isə bir müzakirə olsun, kiminlə isə danışaq. Hörmətli Musa müəllim bunu daha yaxşı bilir. Yəni bu məsələ ilə bağlı bir irəliləyiş olsun. Vallah mən onlarla görüşürəm. Bu yaxınlarda – dünən də, srağagün də iki ailə ilə görüşdüm. Mən görürəm ki, o ailənin ehtiyacı var. Həmin şəhid anasının şəraitinin yaxşılaşmasına ehtiyacı var. O baxımdan mən bu məsələdə bir az tələskənlik olmasını arzu edərdim. Çünki onların həyatı gözləmir. Digərləri isə gözləyə bilər. Şükür Allaha, hələ cavandırlar və sair. O baxımdan, xanım sədr, mən bu məsələdə Sizdən də kömək istəyirəm. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**A.Mirzəzadə**. Təşəkkür edirəm, Sahibə xanım. İlk növbədə sabahkı 26 iyun Silahlı Qüvvələr Günü və bir qədər sonra 2 iyul Polis Günü münasibəti ilə əsgərlərimizi və polis işçilərimizi təbrik eləmək istəyirəm. Hərbçilərimiz Azərbaycanın ərazi bütövlüyünün qorunmasında igidlik göstəriblər və bu gün də Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün keşiyindədirlər. Biz hər gün onların öz işlərinə necə məsuliyyətlə yanaşdığının şahidi oluruq. Azərbaycan xalqı öz əsgəri ilə, hərbçisi ilə fəxr edir və bundan sonra da həmişə fəxr edəcəyik. Gücümüz ordumuzun gücündədir, gücümüz Ali Baş Komandanın apardığı düzgün siyasətdədir.

Polis işçilərimiz gündəlik ictimai asayişin bərpa edilməsində böyük rol oynayırlar. Dünən baş verən ürəkağrıdıcı hadisə göstərdi ki, polis işçiləri hər gün təhlükə ilə üzbəüz gəlirlər. Bununla belə, onların vəzifələrinə çox böyük məsuliyyətlə yanaşması hər bir vətəndaşın təhlükəsizliyinin qorunmasının polis tərəfindən yüksək təmin edilməsini göstərir.

Konkret olaraq bu məsələyə gəldikdə isə, hesab edirəm ki, bu günlərdə mənə edilən bir müraciətin cavabı bu qanunun qəbulu ilə öz həllini tapacaqdır. Sumqayıt şəhərindən mənə bir qadın müraciət etdi. Qardaşı Birinci Qarabağ müharibəsində şəhid olub və şəhid ailəsi üzvü kimi atası mənzil növbəsində durmuşdu. Atası bir neçə il bundan əvvəl rəhmətə gedib və şəhid subay olduğuna görə atasının ev növbəsi artıq ailədə heç kəsə keçməyib. Atası digər övladları ilə  yaşayırdı. Aydın məsələdir ki, mənzil aldıqdan sonra o biri övladlarının mənzil şəraiti yaxınlaşacaqdı. Qadın müxtəlif icra strukturlarına müraciət edir. Bir tərəfdən, hüquqi cəhətdən düzgündür ki, bacı şəhid ailəsi üzvü sayılmır və ona görə də mənzil növbəsi ona keçə bilməz. Amma nəzəri cəhətdən də belə hesab edilir ki, onun atası mənzil alandan bir müddət sonra həyatını dəyişsəydi, mənzil onun bacı və qardaşının əlindən alınmayacaqdı. Mən bu dəyişikliyin bu cür situasiyanı nə dərəcədə həll edə biləcəyini və ya həll edə biləcəkmi, bilmirəm. Həll edə biləcəksə, mən çox sevinərəm. Düzdür, belə nümunələr çox azdır, amma var. Əgər mənə edilən müraciətin cavabı bu qanunla həll edilmirsə, çox istəyərdim ki, bu cür situasiyalar da bu qanunda öz əksini tapsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Musa müəllim, burada səslənənləri

eşitdiniz, bəlkə gələn oxunuşda fikrinizi bildirərsiniz. Saat artıq 2-yə işləyib. Mən heç kimə demədim, yəni fasilə vaxtı da keçirdi. Biz artıq məsələlərimizi qurtarırıq.

Hörmətli həmkarlar, maddələr üzrə münasibət bildirməliyik. Qanun layihəsində bir maddə var. Xahiş edirəm, ona münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı, hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 28-də olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞIN MƏTNİ

***<u>25 iyun 2024-cü il</u>***

**İltizam Yusifov.** “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini dəstəkləyirəm. Lakin bu işi daha da mükəmməl qurmaq üçün ikinci oxunuşun tələblərinə uyğun bəzi məqamlara toxunaraq təkliflərimi verəcəm.

“Yol hərəkəti haqqında” Qanuna, nəhayət, yeni anlayışlar – Velosiped zolağı, velosiped cığırı, velosiped yolu, kiçik elektrik nəqliyyat vasitəsi və sair anlayışlar əlavə edilib. İstər velosiped, istərsə də kiçik elektrik nəqliyyat vasitələrinə olan tələblər, onların şəhər şəraitində təhlükəsiz olaraq hərəkət sisteminə inteqrasiyası üçün qanunvericilikdə mühüm şərtlər müəyyənləşdirilib. Amma velosiped bu qanunun digər müvafiq maddəsinə
yenə də yol hərəkətinin iştirakçısı olaraq velosiped z
cığırı, yolu olmayan avtomobil yollarında da onun hərəkətinə aid olan tələblərə uyğun hərəkət etməlidir.

Bu gün Bakı şəhəri ərazisində, əsasən, ödənişli parklanma xidməti tətbiq olunur. Mən Bakı şəhərində şəhərdaxili yollarda 1 sıra parklanma ərazisinin olması ideyasını həmişə təklif etmişəm və bunu dəstəkləmişəm. Çünki Azərbaycanda ticarət və xidmət obyektlərinin bilavasitə yol kənarında yerləşdirilməsi mental olaraq qəbul edilib. Hərçənd müasir dünyada ticarət və xidmət sahələri, əsasən, müasir elektron platformalar üzərindən işləyirlər. Amma burada əsas bir məqama fikir verməklazımdır.

53-cü maddədə qeyd olunur ki, dövlət avtomobil yol-

larında parklanma yerləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur. 53.4-cü maddədə göstərilir ki, parklanma yerləri 5.15 yol nişanı ilə göstərilir. Məlumat üçün deyim ki, avtomobil yolları, o cümlədən şəhərdaxili yollar müvafiq yol standartları və yol tikintisi normalarına uyğun layihələndirilir və inşa edilir. Şəhər daxilində zolağın eni 3,5 metr olan yollar mövcuddur. Dayanma zolağının eni isə normalara görə, 2,5 metr məzərdə tutulur. Demək, yol zolağının qalan 1 metrində hərəkət qeyri-mümkündür və yolun 1,7 metr ilə nişanlanması hərəkət zolaqlarının sərhədlərini pozur. Təklif edirəm ki, 53.4-cü maddədə "yolun texniki parametrlərinin uyğun gəldiyi yerlərdə parklanma təşkil oluna bilər" sözləri əlavə edilsin.

Bundan əlavə, parklanma təşkil edilən ikizolaqlı yollarda yol zolaqlarının eni hərəkət sürətinə uyğunlaşdırılaraq yol nişanlanması həyata keçirilməlidir. Yəni parklanma təşkil olunan yollarda yol zolağının eni sürətdən asılı olaraq kiçildilə bilər.

# MÜNDƏRİCAT

25 iyun 2024-cü il................................................................ 3
Edilməmiş çıxışın mətni ...................................................... 97

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Növbədənkənar
on altıncı sessiya

76-cı cild

25 iyun 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 6,5. Sifariş 82. Tiraj 150.